Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

72-ci cild

31 may 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 170

*Milli Məclisin iclas salonu.*
*31 may 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 108 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Ramiz Hüseynov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdirinin müavini.

**Emin Alıyev**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sektor müdiri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Elvin Camalov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının şöbə müdiri.

* * *

**Anar Kərimov,** Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Zəka Mirzəyev,** Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyəti sədrinin müavini.

**Elnur Abbasov,** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta, pensiya siyasəti şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. "Əmək pensiyaları haqqında" Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

3. “Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

4. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. “Dərman vasitələri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

8. “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

9. “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Gündəlik qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Vüqar Gülməmmədov, Sabir Rüstəmxanlı, Elman Nəsirov, Vüqar Bayramov, Fazil Mustafa, Tahir Rzayev, Qüdrət Həsənquliyev, Bəhruz Məhərrəmov, Kamran Bayramov, Zahid Oruc

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**2. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**3. "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Azər Kərimli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**4. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbay-**

**can Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**7. "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**8. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Sədaqət Vəliyeva

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**9. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Sessiyanın yekunlarına dair məlumat.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*31 may 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclis sədrinin rəhbərliyi ilə parlament nümayəndə heyəti mayın 27-28-də Antiqua və Barbudanın paytaxtı Sent-Cons şəhərində işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd inkişaf etməkdə olan kiçik ada dövlətlərinin “Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması” mövzusunda 4-cü Beynəlxalq Konfransında iştirak etmək idi.

Dünyanın müxtəlif ölkələrindən hökumət üzvləri ol-

maqla dörd yüzdən çox nümayəndənin iştirak etdiyi toplantıda mən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxudum. Müraciətin mətni mətbuatda dərc edilib və yəqin ki, tanış olmusunuz.

Hörmətli həmkarlar, səfər çərçivəsində bir sıra görüşlər keçirildi. Seynt Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalves, Kubanın vitse-prezidenti Salvador Antonio Valdes Mesa, Antiqua və Barbudanın Nümayəndələr Palatasının sədri Cerald Uott və Senatının sədri Alinsia Vilyams Qrant ilə danışıqlarda Azərbaycanın bu ölkələrlə münasibətlərinə dair fikir mübadiləsi aparıldı. Beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulandı.

Hörmətli həmkarlar, mənim deyəcəklərim bu qədərdir. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Bu gün bizim gündəliyimizdə 9 məsələ var. 1-ci məsələ Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir.

İclasımızda bizim qonaqlarımız, hökumət üzvləri, He-

sablama Palatasının üzvləri var. Mən hamını salamlayıram.

Hörmətli həmkarlar, nəzərinizə çatdırım ki, qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilir. Odur ki, xahiş edirəm, çıxışlarınızda birinci oxunuşun tələblərini nəzərə alasınız.

Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri və media nümayəndələri! Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabat "Büdcə sistemi haqqında" Qanun ilə müəyyən edilmiş müddətdə və formada Milli Məclisə təqdim edilmişdir. Həm layihə, həm də hesabat tələb olunan məlumatları əhatə edərək qanunla müəyyən edilmiş qaydada tərtib olunmuşdur.

Qanun layihəsi və hesabat tərəfimizdən Hesablama Palatasına rəy üçün təqdim edilmiş və bu rəy Palata tərəfindən Milli Məclis üzvlərinə təqdim edilmişdir. Qeyd edim ki, rəy dövlət büdcəsi gəlirlərinin 97,8 faizini, xərclərinin isə 85,5 faizini əhatə edən vəsaitlərin qurumlar tərəfindən təqdim edilən hesabatlarla üzləşdirilməsi nəticəsində hazırlanmışdır.

2023-cü ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükə-

sizlik çağırışları istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin, regionda baş verən hadisələrin, müharibə və təhlükəsizlik çağırışlarının və işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra edilmişdir.

Təqdim olunmuş sənədlər Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2023-cü il 23 may tarixli iclasında ətraflı müzakirə edilmişdir. İclasda Maliyyə və İqtisadiyyat nazirlikləri, Hesablama Palatası və digər dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə dövlət büdcəsinin icrasının əsas parametrləri, 2023-cü ilin makroiqtisadi göstəriciləri ətraflı müzakirə edilmişdir.

Hörmətli həmkarlar, 2023-cü il ölkəmizin tarixində mühüm hadisələrlə zəngin olmuş, gələcək nəsillər üçün yeni dövrün başlandığı il kimi yadda qalmışdır. Müasir və müstəqil Azərbaycanın memarı olan Ulu Öndər Heydər Əliyevin 100 illiyini ehtiramla yad etdiyimiz 2023-cü il Heydər Əliyev siyasətinə sadiq qalmaqla Azərbaycan dövlətinin ən böyük uğurlar əldə etdiyi il kimi tarixə keçmişdir.

2023-cü il Azərbaycan Bayrağının müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Xankəndidə, Xocalıda ucaldıldığı, uzun illər dövlətimizə və xalqımıza böyük zərər vermiş erməni separatçılığına son qoyulduğu ildir. 2023-cü ilin dövlət büdcəsinin tam və çevik icrası bu tarixi anlara iqtisadiyyatımızın verə biləcəyi ən böyük töhfə olmuşdur.

Ötən il dünyada geosiyasi və geoiqtisadi gərginliklərin artması fonunda qlobal iqtisadiyyatın zəif bərpası ilə xarakterizə olunmuşdur. Beynəlxalq Valyuta Fondunun hesabatına əsasən, qlobal iqtisadi artım 2023-cü ildə 3,2

faiz olmaqla gözləntiləri üstələsə də, 2022-ci ildə qeydə alınmış göstəricilərdən 0,3 faiz bənd az olmuşdur. Beynəlxalq ticarətin artım tempi zəifləmiş, ölkələrdə iqtisadi aktivlik, əsasən, daxili tələb amilləri hesabına təmin edilmişdir. 2021-ci ildə 11 faiz, 2022-ci ildə isə 5,6 faiz artan beynəlxalq ticarət 2023-cü ildə cəmi 0,3 faiz artmışdır.

2023-cü ildə dünyada orta illik inflyasiya əvvəlki ilə nisbətən 1,9 faiz azalaraq 6,8 faiz təşkil etmişdir. Qeyd edim ki, Azərbaycanda orta illik inflyasiya 10,4 faizlik proqnoza qarşı 8,8 faiz təşkil etmişdir. İnflyasiyaya səbəb olan amillərdən biri olan idxal edilən məhsulların ilin sonuna olan qiyməti 2022-ci ilin sonuna olan qiymətlərlə müqayisədə 15,8 faiz artmışdır. Təhlillər göstərmişdir ki, Azərbaycanda orta illik inflyasiya xarici və daxili amillərin, o cümlədən həyata keçirilən antiinflyasiya siyasətinin təsirindən azalmışdır.

2023-cü ildə müxtəlif markalar üzrə 1 barel neftin orta qiyməti 80,9 ABŞ dolları olmuş, əvvəlki ilə nisbətən 16,8 ABŞ dolları ucuzlaşmışdır. Dünya Bankının hesablamalarına görə neftin qiymətinin 10 faiz artması bir il ərzində qlobal inflyasiyanı 0,35 faiz bənd artıracaqdır. Qeyd edim ki, Azərbaycanda 2023-cü ilin büdcə zərfində neftin bir barelinin qiyməti 60 dollardan götürülsə də, “Azeri Light” markalı neftin bir barelinin orta illik qiyməti keçən il 86,1 dollar və yaxud 43,5 faiz çox olmuşdur.

Hesabat ilində dünya üzrə büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 5,5 faizə bərabər olmuşdur. Müqayisə üçün qeyd edim ki, ölkəmizdə dövlət büdcəsinin kəsiri 2023-cü ilin faktiki ümumi daxili məhsulunun cəmi 1 faizini təşkil etməklə proqnozlaşdırılmış həddən 1,5 faiz az olmuşdur.

Dünya üzrə dövlət borcunun ümumi daxili məhsula

nisbətində artım müşahidə olunmuş, 2023-cü ildə bu göstərici 93,2 faiz, neft ixrac edən ölkələrdə isə 50,8 faiz olmuşdur. Müqayisə üçün qeyd edim ki, Azərbaycanın cari ilin əvvəlinə olan dövlət borcu 26 milyard 850,4 milyon manat təşkil etməklə 2023-cü ildəki ümumi daxili məhsulun cəmi 21,8 faizini təşkil etmişdir.

Qlobal geosiyasi çağırışlara rəğmən, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatların nəticəsi olaraq 2023-cü ildə Azərbaycanda makroiqtisadi sabitlik təmin edilmiş, hökumət və Mərkəzi Bank tərəfindən atılan addımlar inflyasiyanın birrəqəmli səviyyəyə enməsini şərtləndirmişdir.

Yeni reallıqlar müstəvisində 2023-cü il ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft-qaz məhsullarının ixracının genişləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir.

2023-cü ildə ölkəmizdə ümumi daxili məhsul real ifadədə 1,1 faiz artmış, nominal ifadədə isə 111,6 milyard manat proqnoza qarşı 123 milyard manat təşkil etmişdir. Qeyri-neft-qaz sektorunda 3,7 faizlik artım, neft-qaz sektorunda isə, əsasən, neft hasilatının azalması ilə bağlı 1,7 faiz azalma qeydə alınmışdır. 2023-cü ildə əsas kapitala yönəldilən vəsaitin məbləği əvvəlki ilə nisbətən 9,8 faiz artaraq 20,3 milyard manat təşkil etmişdir. Bu investisiyaların 80,9 faizi daxili mənbələr hesabına formalaşmış, 6,3 milyard manatı neft, 14 milyard manatı isə qeyri-neft sektoruna yönəldilmişdir.

Təqdim edilmiş məlumatlara görə, 2023-cü il ərzində ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 12,8 faiz artaraq 78,1 milyard manat təşkil etmişdir. Bu, hər nəfərə təxminən 7687 manat illik orta gəlir deməkdir.

Əlverişli beynəlxalq konyunktur tədiyyə balansının cari əməliyyatlar balansında, əvvəlki illərdə olduğu kimi, 8,3 milyard dollar həcmində profisit formalaşdırmışdır.

2023-cü ildə ixracımız 27,6 milyard dollar təşkil etməklə 17,3 milyard dollarlıq idxalımızı 10,3 milyard dollar üstələmişdir. Qeyri-neft-qaz məhsullarının ixracı real ifadədə 3,9 faiz artaraq 3 milyard 348 milyon dollara bərabər olmuşdur. Əvvəlki illərdən fərqli olaraq, idxalın artımında dövlətin rolu azalmış, fiziki şəxslərin rolu isə artmışdır. Fikrimizcə, fiziki şəxslərin idxalının artması ölkədə yerli istehsalın və rəqabət mühitinin gücləndirilməsi ilə bağlı tədbirlərin daha da gücləndirilməsini zəruri edir.

2023-cü ilin sonuna olan məlumata əsasən, ölkənin məcmu valyuta ehtiyatları 17,1 faiz artaraq 68,5 milyard dollara çatmışdır. Bu göstərici ümumi daxili məhsulun 94,7 faizinə bərabər olmaqla xarici dövlət borcunu təqribən 10,6 dəfə üstələmiş, 34 aylıq mal və xidmət idxalına bərabər olmuşdur.

Təqdim edilmiş məlumatlara əsasən, demək olar ki, büdcə qaydasının əsas göstəriciləri hədəflənən yuxarı hədləri aşmamışdır. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi 22,5 faiz, yaxud hədəf göstəricidən 2,5 faiz bənd az, dövlət borcunun ümumi daxili məhsula nisbəti isə 21,8 faiz və yaxud da hədəf göstəricidən 8,2 faiz bənd az olmuşdur.

Beləliklə, göründüyü kimi, 2023-cü il ərzində həm daxili, həm də beynəlxalq iqtisadi konyunktur Azərbaycan üçün, əsasən, əlverişli olmuş, icmal büdcənin effektiv icrası üçün lazımi şərait formalaşdırmışdır.

İndi isə dövlət büdcəsinin əsas parametrləri barədə. Gəlirlər üzrə. 2023-cü ildə dövlət büdcəsinin gəlirləri 33 milyard 890,5 milyon manat proqnoza qarşı 35 milyard

236,4 milyon manat təşkil etmişdir. Gəlirlər proqnozla müqayisədə 1 milyard 345,9 milyon manat və ya 4 faiz çox icra olunmuşdur. Dövlət büdcəsinin gəlirlərinin ümumi daxili məhsulda xüsusi çəkisi 28,6 faiz təşkil etmişdir ki, bu da 2022-ci illə müqayisədə 5,7 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin 45,8 faizi vergi orqanlarının, 18 faizi gömrük orqanlarının xətti ilə, 33,3 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 2,9 faizi isə digər gəlirlər üzrə daxilolmaların payına düşmüşdür. Dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 17 milyard 80 milyon manat təşkil etmişdir ki, bu da proqnozdan 1 milyard 129,2 milyon və ya 7,1 faiz çoxdur. Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin artması onun dövlət büdcəsinin ümumi gəlirlərində xüsusi çəkisini nəzərdə tutulmuş 47,5 faizdən 48,5 faizə qədər artırmışdır.

Hesabat ilində dövlət büdcəsinin neft sektoru üzrə daxilolmaları 18 milyard 156,4 milyon manat olmuşdur ki, neft sektoru üzrə büdcə gəlirlərinin dövlət büdcəsinin ümumi gəlirlərində xüsusi çəkisi nəzərdə tutulmuş 52,5 faizdən 51,5 faizə qədər azalmışdır.

2023-cü ildə vergi orqanları xətti ilə dövlət büdcəsinə daxilolmalar 16 milyard 126,7 milyon manat olmuşdur ki, bu da təsdiq edilmiş proqnozdan 1 milyard 139,7 milyon manat çoxdur. Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə daxil olan vəsaitin 60,2 faizi qeyri-neft sektorunun, 39,8 faizi isə neft sektorunun payına düşmüşdür. Qeyd etmək istərdim ki, vergi orqanlarının xətti ilə qeyri-neft sektoru üzrə daxilolmaların həcmi 2023-cü ildə 2022-ci illə müqayisədə 1 milyard 572 milyon manat artmış, dövlət büdcəsinin gəlirlərində xüsusi çəkisi isə 26,5 faizdən 27,6 faizə qədər yüksəlmişdir. Dövlət Gömrük

Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar isə 6 milyard 337,8 milyon manat olmuşdur ki, bu da təsdiq edilmiş proqnozdan 609,8 milyon manat çox olmuşdur. Artıma səbəb, əsasən, idxalın həcminin 16,3 faiz, idxal edilmiş malların qiymət indeksinin isə 16,7 faiz artması ilə izah olunur.

Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar isə 857 milyon manat proqnoza qarşı 480,8 milyon manat və ya 56,1 faiz icra olunmuşdur. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfer proqnozla nəzərdə tutulan məbləğdə, yəni 11 milyard 737,6 milyon manat tam olaraq icra olunmuşdur.

Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə 321,2 milyon manat proqnoza qarşı icra cəmi 151 milyon manat və ya 47 faiz təşkil etmişdir. Hesab edirik ki, bu mənbə üzrə büdcə daxilolmalarının az icra olunması dividendlərin bölgüsü üzrə yeni qaydaların işlənib hazırlanmasını zəruri etməkdədir. Eyni zamanda, qeyd etmək istərdik ki, dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində, ümumilikdə, 55,6 milyon manat vəsait dövlət büdcəsinə bərpa olunmuşdur.

Azərbaycan Respublikasının payına düşən qızılın satışından isə dövlət büdcəsinə 26,3 milyon manat vəsait daxil olmuşdur.

İndi isə xərclər üzrə. 2023-cü ilin dövlət büdcəsində təsdiq olunmuş 36 milyard 624,8 milyon manat xərcin 36 milyard 457,9 milyon manatı və ya 99,5 faizi icra olunmuşdur. Qeyd edim ki, bu icra faizi son illərin ən yüksək icra faizidir. Strukturuna görə xərclərin 55,6 faizini cari xərclər, 41,2 faizini əsaslı xərclər, 3,2 faizini isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil etmişdir.

Sosial yönümlü xərclər 2023-cü il dövlət büdcəsinin icrasında xərclərin 35,8 faizi və ya 13 milyard 50,4 milyon manat həcmində olmuşdur. Sosial yönümlü xərclərə aid olan əməyin ödənişi xərclərinə 8 milyard 130,1 milyon manat, sosial ödənişlər üzrə xərclərə 4 milyard 396,4 milyon manat, ərzaq məhsullarının alınması və təminatı üzrə xərclərə isə 407,8 milyon manat vəsait xərclənmişdir.

Dövlətin apardığı sosial-iqtisadi siyasətin davamı olaraq əhalinin gəlir əldə etmək imkanlarının artırılması, rifahının yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusi ilə də sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə onlara ödənilən sosial ödənişlərin, o cümlədən əmək haqlarının, əmək pensiyalarının, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması 2023-cü ildə də davam etdirilmişdir.

Belə ki, 2023-cü il yanvarın 1-dən etibarən sosial müavinətlər və Azərbaycan Respublikası Prezidentinin təqaüdləri 33 faiz artırılmışdır. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin vahid tarif cədvəli ilə müəyyən edilmiş əməkhaqqı tarifləri 15 faiz artırılmışdır.

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının əməkhaqqı və təminat sistemində islahatlar aparılmaqla bu məqsədlə əlavə 31,8 milyon manat vəsait büdcədən icra olunmuşdur.

Bununla yanaşı, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan 165 minə yaxın işçinin əmək haqlarının artımı üçün dövlət büdcəsindən 142,7 milyon manat vəsait xərclənmişdir.

Yuxarıda sadalanan artımların maliyyə tutumu cəm

olaraq 749,8 milyon manata bərabər olmaqla 1,9 milyon nəfər vətəndaşı əhatə etmişdir.

Dövlət büdcəsindən iqlim dəyişiklikləri ilə mübarizə tədbirlərinə cəm olaraq 856,9 milyon manat vəsait sərf edilmişdir. Səhiyyə xərclərinə ayrılmış 1 milyard 723,4 milyon manat vəsaitin 99,9 faizi icra olunmuşdur. Hesabat ilində səhiyyə xərclərinin ÜDM-də nisbəti 1,4 faiz, dövlət büdcəsi xərclərinin isə 4,7 faizini təşkil etmişdir. İcra edilmiş səhiyyə xərclərinin 73,4 faizi və ya 1 milyard 263,8 milyon manatı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin payına düşmüşdür.

Dövlət büdcəsindən təhsil üçün ayrılmış 4 milyard 129,9 milyon manatın yenə 99,9 faizi icra olunmuşdur. Hesabat ilində təhsil xərcləri ÜDM-in 3,4 faizini, dövlət büdcəsi xərclərinin isə 11,3 faizini təşkil etmişdir. İcra edilmiş bu xərclər hesabına dövlət sifarişi üzrə bakalavriat səviyyəsi üzrə 100 min 726 nəfərin, – müqayisə üçün deyim ki, 2022-ci ildə bu rəqəm 15 min 378 nəfər artırılmışdır, – magistratura səviyyəsi üzrə 12 min 977 nəfərin, rezidentura səviyyəsi üzrə 2 min 48 nəfərin, doktorantura səviyyəsi üzrə 619 nəfərin təhsil və təqaüd xərcləri tam ödənilmişdir.

Eyni zamanda, məcburi köçkün statuslu 16 min 841 nəfərin, şəhid və əlil olmuş şəxslərin uşaqları olan 2 min 464 nəfərin, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 1208 nəfərin təhsil və təqaüd xərcləri dövlət büdcəsindən ödənilmişdir.

2023-cü ildə elm üçün ayrılmış xərclər 193,8 milyon manat və ya 99,6 faiz həcmində icra olunmuşdur. Hesabat ilində elm xərcləri ÜDM-in 0,2 faizini təşkil etmişdir.

Hesabat ilində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin

öhdəliklərinin maliyyələşdirilməsinə 1 milyard 467,8 milyon manat vəsait yönəldilmişdir. Keçmiş məcburi köçkünlərin sosial müavinəti üçün dövlət büdcəsindən 353,9 milyon manat vəsait sərf edilmişdir.

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədi ilə 2023-cü ildə müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 19,9 faizi həcmində və ya 7 milyard 246,9 milyon manat vəsait sərf edilmişdir.

Hesabat ilində ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə 457,7 milyon manat, meliorasiya tədbirlərinin maliyyə təminatı üçün 423,5 milyon manat vəsaitin dövlət büdcəsindən icrası təmin olunmuşdur.

Keçən il 51 publik hüquqi şəxsə dövlət sifarişi əsasında bir sıra iş və xidmətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən 442,1 milyon manat vəsaitin ödənişi icra olunmuşdur.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən cəm olaraq 5 milyard 581,6 milyon manat vəsait ayrılmışdır. Həmin vəsaitin 5 milyard 245,5 milyon manatı infrastruktur təyinatlı layihələrin tikintisinə, yenidən qurulmasına, 110,2 milyon manatı ərazilərin minalardan təmizlənməsinə, 106,8 milyon manatı müdafiə və hüquq mühafizə təyinatlı obyektlərin tikintisinə və təmirinə, 59,7 milyon manatı sosial təyinatlı layihələrin maliyyələşməsinə yönəldilmişdir.

2023-cü ilin dövlət büdcəsində xarici dövlət borcu üzrə 772,3 milyon manat vəsait, daxili dövlət borcu üzrə isə 259,6 milyon manat faiz borcu dövlət borcu və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilmişdir.

2023-cü ildə dövlət büdcəsinin yerli gəlirləri 764,7

milyon manat proqnoza qarşı 832,3 milyon manat məbləğində və ya 8,8 faiz çox icra olunmuşdur. Dövlət büdcəsinin yerli xərcləri isə 777,1 milyon manat proqnoza qarşı 95,1 faiz icra olunmuşdur.

2023-cü il dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 milyard 734 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1 milyard 221,5 milyon manat təşkil etmişdir. Dövlət büdcəsinin kəsirinin 2023-cü ildə faktiki ÜDM-ə nisbəti cəmi 1 faiz təşkil etmişdir.

2023-cü il icmal büdcənin gəlirləri 43 milyard 60,1 milyon manat proqnoza qarşı 6 milyard 988,9 milyon manat və ya 16,2 faiz çox icra olunmaqla 50 milyard 49 milyon manat təşkil etmişdir. İcmal büdcənin xərcləri isə 41 milyard 269,8 milyon manat proqnoza qarşı 97,8 faiz həcmində icra edilmişdir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin gəlirləri təsdiq olunmuş 16 milyard 337,5 milyon manat proqnoza qarşı 21 milyard 661,9 milyon manat və ya 32,6 faiz çox icra olunmuşdur. Fondun büdcəsinin xərcləri isə 11 milyard 799,9 milyon manat icra edilmişdir ki, bu da təsdiq olunmuş proqnoz göstəricinin 99,9 faizidir.

İcmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 605 milyon manat proqnoza qarşı 500,7 milyon manat və ya 104,3 milyon manat az icra olunmuşdur. Dövlət büdcəsində nəzərdə tutulmuş dotasiya istisna olmaqla, Naxçıvan Muxtar Respublikasının büdcəsinin öz gəlirləri 152,2 milyon manat proqnoza qarşı faktiki icra 185,7 milyon manat və ya 33,5 milyon manat çox olmuşdur. Proqnozdan artıq daxilolmalar nəzərə alınmaqla, muxtar respublikanın büdcəsinin gəlir və xərclərinin tənzimlənməsi üçün dövlət büdcəsindən 315 milyon manat və ya proqnoza nisbətən

137,8 milyon manat az dotasiya ayrılmışdır.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri isə 605 milyon manat proqnoza qarşı faktiki 504,8 milyon manat və ya 83,4 faiz icra olunmuşdur. Xərclərin az icrası Naxçıvan Muxtar Respublikasının büdcəsində nəzərdə tutulmuş bəzi tədbirlər üzrə xərclərin optimallaşdırılması hesabına qənaətin yaranması ilə bağlıdır.

Hörmətli həmkarlar, aparılan müzakirələr və təhlillər 2023-cü ilin dövlət büdcəsinin icrasının qarşıya qoyulan hədəflərə nail olunduğunu deməyə imkan verir. Eyni zamanda, təqdim olunmuş sənədləri müzakirə edərkən bu qənaətə gəlirik ki, büdcə gəlirləri və xərclərinin daha dəqiq planlaşdırılması və daha səmərəli icrası üçün mövcud qanunvericilik bazasının təkmilləşməsinə və ya yeni, daha çevik büdcə alətlərinin yaradılmasına, maliyyə intizamının daha da gücləndirilməsinə, büdcə alətləri ilə yanaşı, büdcə təşkilatlarının planlaşdırma və hesabatlılıq davranışlarının təkmilləşdirilməsinə və bu məqsədlərə xidmət edən texniki həllərin tətbiqinə ehtiyac vardır. Xüsusi ilə büdcə xərclərinin icrasının səmərəlilik və nəticəlilik əsasında qiymətləndirilməsi, gəlirlərinin isə potensiala daha yaxın planlaşdırılması üçün daha çevik və yeni yanaşmalara ehtiyac vardır. Dövlət büdcəsinin icrası prosesində müşahidə olunan faktlar bu qənaətimizi daha da gücləndirmişdir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Yekun olaraq, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi hesab edir ki, 2023-cü il üçün dövlət büdcəsinin icrası möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən müəyyən edilən əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin icrası, əhalinin sosial müdafiəsinin daha da

yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, iqtisadi subyektlərin dəstəklənməsi, müdafiə və təhlükəsizlik tədbirlərinin görülməsi üçün lazımi maliyyə təminatı yaratmış və öz müsbət rolunu oynamışdır. Qanun layihəsinə komitənin rəyi müsbətdir.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini dəstəkləməyinizi sizdən xahiş etmək istərdim.

Sonda, hörmətli xanım sədr, icazənizlə, bir məsələni də vurğulamaq istərdim. Beynəlxalq Büdcə Əməkdaşlığı Təşkilatı tərəfindən hər iki ildən bir təqdim olunan "Açıq Büdcə İndeksi" açıqlanmışdır. Burada büdcə proseslərinin şəffaflığı və büdcə məlumatlarının ictimaiyyət üçün əlçatanlığının səviyyəsi qiymətləndirilir.

Dünən açıqlanan 2023-cü il üzrə hesabatda Azərbaycan ilk dəfə olaraq mümkün 100 baldan 67 bal nəticə alaraq, 125 ölkə arasında 21 pillə irəliləyərək 23-cü sırada yer tutmuş, büdcə barədə kifayət qədər məlumat dərc edən ən qabaqcıl ölkələr qrupuna daxil olmuşdur. Milli Məclisin, Maliyyə Nazirliyinin və Hesablama Palatasının ictimaiyyət üçün açıq olan birgə müzakirələri, rəsmi saytlarda, digər mühüm büdcə sənədlərində vaxtında dərc olunan məlumatlar Azərbaycanın bu göstəricilər üzrə ciddi irəliləyişində mühüm rol oynamışdır. Fürsətdən istifadə edib bu uğura görə hər kəsi təbrik edirəm. Diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**Sədrlik edən.** Ətraflı məlumata görə çox sağ olun, Tahir müəllim. Vurğuladığınız son məqamla bağlı, bəli, biz də təbrik edirik. Doğrudan da, bu, böyük bir işdir.

Hörmətli həmkarlar, Hesablama Palatası qanun layihəsinə dair rəy verib və həmin rəy sizə paylanıb. Bu barədə

məlumat vermək üçün mən Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mərkəzi icra hakimiyyətinin rəhbərləri, məsul şəxslər. 2023-cü il Ali Baş Komandanın uğurlu siyasəti, hərbçilərimizin qəhrəmanlığı və şücaəti sayəsində suverenliyimizin bərpa olunduğu ilin yekunlarını özündə əks etdirir. Bu ildə qlobal iqtisadi artım geosiyasi volatillikdən təsirlənsə də, Azərbaycanda dövlət büdcəsinin icra edildiyi makroiqtisadi mühit qənaətbəxş olmuş, qeyri-neft-qaz sektorunun hesabına olmaqla iqtisadiyyatda artım izlənmişdir.

Hesablama Palatası tərəfindən 2023-cü ilin dövlət büdcəsinin icrasına dair Milli Məclisdən daxil olmuş qanun layihəsinə və illik hesabata rəy hazırlanmışdır. Birinci oxunuş olduğu üçün təqdim etdiyimiz rəy barədə makroyanaşmaları diqqətinizə çatdırmaq istəyərdim.

İlk olaraq qanun layihəsi barədə. Qanun layihəsi üç əsas maddədən ibarətdir. Qanun layihəsi "Büdcə sistemi haqqında" Qanuna uyğun hazırlanmışdır. Belə ki, layihə "Büdcə sistemi haqqında" Qanunun 20.6-cı maddəsi ilə müəyyən edilmiş bütün tələblərə uyğundur. Bu qanun layihəsinin əvvəlki ildən fərqli cəhəti manatın xarici valyutalarla nisbətdə məzənnəsinin dəyişməsi nəticəsində 36,9 min manat qazanc yaranması və müvafiq qaydada qeyd edilməsidir. Xatırladım ki, bir il əvvəl 1,5 milyon manat məbləğində itki hesablanmışdır.

Hörmətli millət vəkilləri, məlum olduğu kimi, Hesablama Palatasının rəyinin əsas predmetlərindən biri də qanun layihəsində əks etdirilmiş göstəricilərin təsdiqidir.

Audit standartlarına əsasən ali audit orqanı digər mənbələrdən əldə edilmiş məlumatların müqayisəli təhlili əsasında təqdim edilmiş məlumatların etibarlılığını qiymətləndirir. Məhz standartın bu tələbi nəzərə alınmaqla, ilk olaraq, qanun layihəsinin 1-ci və 2-ci maddələrində əks etdirilmiş gəlirlərin ümumi məbləğinin və mədaxil mənbələri üzrə məbləğlərin təsdiqlənməsi barədə mövqeyimizi ifadə etmək istərdim.

Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən qurumların təqdim etdiyi hesabatlar əsasında 2023-cü ildə 34 milyard 477,1 milyon manat məbləğində daxilolmalar təhlillə əhatə edilmişdir ki, bu da dövlət büdcəsinin ümumi gəlirlərinin 97,8 faizinə bərabərdir. Bununla yanaşı, aparılan analitik prosedurlarla bəzi gəlirlərin hesablandığı halda, qanun layihəsində tanınmadığını müəyyən etmişik. Belə ki, büdcə təşkilatlarının depozit və tapşırıqlar üzrə vəsaitlərinin qalıqlarının bir hissəsi, habelə xəzinə hesabının qalığının idarəetməsi üzrə hesablanmış, lakin dövlət büdcəsinə tam şəkildə köçürülməmiş məbləğlər də dövlət büdcəsinin gəlir parametrinə daxil olmaqla sərbəst qalıq vəsaitlərinin artmasını şərtləndirə bilərdi. Eyni zamanda, aparılan analitik prosedurlarla bəzi gəlirlərin büdcədən artıq tanındığını müəyyən etmişik. Belə ki, "Büdcə sistemi haqqında" Qanunun 5-ci maddəsinə əsasən məqsədli büdcə fondları və büdcədənkənar gəlir kimi əvvəlki ildə tanınan daxilolmalar hesabat ilinin dövlət büdcəsi gəlirlərində bir daha tanınmışdır. Dövlət maliyyəsi ilə bağlı qabaqcıl təcrübədə aidiyyəti məbləğlərin gəlir kimi tanınmasına yol verilmir. Qeyd edək ki, komitə iclasında aparılan müzakirələr zamanı Maliyyə Nazirliyi tərəfindən bu istiqamətdə uyğunsuzluğun aradan qaldırılması üçün "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik nəzərdə tutulur.

Bildirim ki, 2023-cü ildə eyni daxilolmaların təkrarən gəlir kimi tanınmaması üçün uçotda 340 milyon manat məbləğində dəyişiklik edilmiş və bu, büdcədənkənar gəlirlərin də icra səviyyəsinə təsir etmişdir. Adi standartların tələblərindən irəli gələrək qanun layihəsinin 1-ci və 2-ci maddələrində əks etdirilmiş xərclərin ümumi məbləğinin və xərc istiqamətləri üzrə məbləğlərin təsdiqlənməsi barədə mövqeyimizi bildirmək istərdim. Son illərdə olduğu kimi, 2023-cü ilin dövlət büdcəsinin icrasına dair rəydə də Hesablama Palatası tərəfindən dövlət büdcəsi vəsaitlərinin icraçısı olan qurumların vəsaitlərinin istifadəsi ilə bağlı təqdim etdiyi hesabatların təhlili nəticələrindən istifadə edilmişdir. Hesablama Palatası tərəfindən rəyin tərtib edilməsi zamanı 158 qurum və bir istiqamət üzrə 31,2 milyard manatı əhatə edən və vəsaitlərin icrasını təsdiq edən xəzinə üzləşmə aktları və digər sənədlər nəzərdən keçirilmişdir, bu da icra edilmiş dövlət büdcəsi xərclərinin 85,5 faizini təşkil edir. Qeyd edək ki, təhlilin əhatə dairəsi əvvəlki ilə nisbətən 7,9 faiz bənd artmışdır.

Hörmətli millət vəkilləri, qanun layihəsi ilə yanaşı, təqdim edilmiş büdcənin icrasına dair illik hesabatın bəzi göstəricilərinə Hesablama Palatasının münasibətini təqdim etmək istərdim. Aparılan təhlillər 2023-cü il dövlət büdcəsinin icrası ilə bağlı təqdim olunan sənədlərin siyahısının əvvəlki illərlə müqayisədə nisbətən artırıldığını, izah və məlumatların keyfiyyətinin yüksəldilməsi istiqamətində addımların atıldığını göstərir. Ümumiyyətlə, 2023-cü ilin dövlət büdcəsinin icrası son illərdə müşahidə edilən bir sıra proseslərin təsiri altında formalaşmışdır. Bu sıraya dövlət maliyyəsinin idarə edilməsinin əsas xüsusiyyəti olaraq, 2018-ci ildən başlayaraq, əvvəlki ilə nisbətdə hər il artan büdcə gəlirləri və xərcləri, son 3 ildə ümumi

daxili məhsula nisbətdə müşahidə edilən 1,1 faizlik kəsir, son iki ildə neft sektoru üzrə daxilolmaların strukturunda mənfəət vergisi, o cümlədən hasilatın pay bölgüsü üzrə, mənfəət vergisi üzrə əhəmiyyətli artımların olması, eyni zamanda, son iki ildə icrası davam etdirilən 2022–2026-cı illərin sosial-iqtisadi inkişaf strategiyasının dövlət büdcəsi vasitəsi ilə maliyyələşməsi, həmçinin strategiyanın icrası və ümumi islahatların xarakteri nəzərə alınaraq dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi qaydasına əsasən qəbul edilmiş dövlət proqramlarının büdcə vasitəsi ilə maliyyələşdirilməsi və son üç ildə dünyada və ölkəmizdə müşahidə edilən qiymət artımı və bunun büdcə daxilolmalarına təsiri altında edilə bilər. Əvvəlki illərdə olduğu kimi, hesabat ilində də qlobal siyasi və iqtisadi mühitdə davam edən qeyri-müəyyənliklər fonunda həyata keçirilən qabaqlayıcı tədbirlər sayəsində ölkədə makroiqtisadi sabitlik təmin olunmuşdur.

Büdcə qaydasının birinci göstəricisi olan icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisi dövlət büdcəsinin yenidən baxılması zamanı hədəfdən kənarlaşma ilə planlaşdırılsa da, icra prosesində bu göstərici 22,5 faiz təşkil etməklə hədəflənən göstəricidən 2,5 faiz bənd az olmuşdur. Büdcə qaydasının ikinci komponenti olan dövlət büdcəsinin ümumi daxili məhsula nisbəti üzrə hədəfə riayət edilmiş və bu, müəyyən edilmiş göstəricidən 8,2 faiz bənd az olmuşdur. Eyni zamanda, qeyd edilməlidir ki, bu göstərici əvvəlki illə müqayisədə 10,2 faiz bənd yüksəlmişdir.

2023-cü ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə dövlət büdcəsinin gəlirləri çox icra edilmiş, qanun layihəsində göstərilmiş mədaxil mənbələrinə münasibətdə proqnoz göstəricilər 13 mənbə üzrə artıqlaması ilə, 5 mənbə

üzrə kəsirlə, 3 mənbə üzrə proqnozla eyni səviyyədə yerinə yetirilmişdir. Hesabat ilində dövlət büdcəsinin qeyri-neft-qaz gəlirləri 11,3 faiz artaraq 17,1 milyard manat təşkil etmişdir. Lakin cari xərclərin artımının qeyri-neft-qaz gəlirlərinin artımını üstələməsi cari xərclərin qeyri-neft gəlirləri hesabına təmin olunma səviyyəsinin azalması ilə nəticələnmişdir. Lakin müdafiə olunan xərclərdə müvafiq nisbətdə əvvəlki illə müqayisədə artım qeydə alınmış və qeyri-neft-qaz gəlirləri hesabına dövlət büdcəsinin müdafiə olunan xərclərini tam maliyyələşdir-mək mümkün olmuşdur.

2023-cü ildə dövlət büdcəsinin xərcləri əvvəlki ilə nisbətən 4,3 milyard manat olmaqla əhəmiyyətli dərəcədə artmışdır. Hesabat ilinin xərclərində sosial yönümlü istiqamətlər, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, eləcə də müdafiə və təhlükəsizlik sahəsi xüsusi diqqətdə saxlanılmışdır. Dövlət büdcəsinin icrası barədə Hesablama Palatasına təqdim edilmiş əlavə hesabatlara əsasən 2023-cü ildə təsdiq edilmiş göstərici-lərin, dəyişikliklərin məbləği 3 milyard manatdan bir qədər artıq olmuşdur. İnzibati təsnifat üzrə dəyişikliklərə dair məlumatların təhlili göstərir ki, ümumilikdə, 36,6 milyard manatı əhatə edən xərclərin nəzərdə tutulduğu 235 istiqamətdən 19,3 milyard manatı əhatə edən 141 istiqamət üzrə dəyişiklik edilmiş, yerdə qalan 17,3 milyard manatı əhatə edən 94 istiqamət üzrə dəyişiklik aparılma-mışdır. Hesablama Palatası tərəfindən keçirilən dövlət maliyyə nəzarəti tədbirləri, eləcə də qurumlar tərəfindən təqdim edilmiş məlumatların təhlili ilə dövlət büdcəsindən ayrılmış vəsaitlər ilin son dekadasında “Büdcə sistemi haqqında” Qanunun tələblərinin pozulması ilə akkreditiv hesablara yönəldilmiş, dövlət büdcəsinin icrasına daxil

edilmiş, dövlət əsaslı vəsait qoyuluşu və işğaldan azad edilmiş ərazilərin bərpasına ayrılan, eləcə də subsidiya, məqsədli maliyyələşmə və digər istiqamətdə xərclərin də bir qismi istifadəsiz saxlanmışdır. Hesab edirik ki, qurumlar tərəfindən aparılan müvafiq əməliyyatlar dövlət büdcəsi üzrə uçot və hesabatlılıqda uyğunsuzluğa səbəb olur və bu makrogöstəricilərin də təhrif oluna biləcəyini ehtimal edirik.

İl ərzində aparılmış dəyişikliklər, ehtiyat fondu üzrə nəzərdə tutulmuş məbləğin əhəmiyyətli dərəcədə artırılması fonunda bu fondlara dair qanunvericiliklə müəyyən edilmiş limitlərə riayət olunmuş, hər iki fond üzrə sərəncamların böyük hissəsi ilin ikinci yarısında imzalanmışdır. Büdcə zərfinə əsasən 2023-cü ilin dövlət əsaslı vəsait qoyuluşu xərcləri 2,6 milyard manat olmuşdur. Ümumiyyətlə, aparılan təhlillər göstərir ki, xarici kreditor qurumlarla birgə maliyyələşmə və digər mənbələr hesabına həyata keçirilən layihələr istisna olmaqla, ümumi layihə dəyəri 20,9 milyard manat olan keçid layihələrinə 2023-cü il də daxil olmaqla 7,9 milyard manat vəsait xərc edilmişdir. Layihələrin tamamlanması üçün gələcək dövrə tələb olunan vəsait 13 milyard manat təşkil edir.

2023-cü ilin dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsünə daxil olan layihələrin icrasına əlavə olaraq dövlət büdcəsinin ehtiyat fondundan, dövlət əsaslı vəsait qoyuluşundan və dövlət büdcəsinin digər bölmələrindən də vəsait yönəldilmişdir. Əsaslı vəsait qoyuluşunda olduğu kimi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ayrılmış vəsait, keçid layihələr üstünlük təşkil etmişdir. Belə ki, 21 sifarişçi üzrə təqdim edilmiş hesabata əsasən maliyyələşməsi həyata keçirilən 237 layihədən ümumi dəyəri 1,1 milyard manat

olan 35 layihə tam başa çatdırılıb, 202 keçid layihəsi üçün 26,4 milyard manat vəsait tələb olunacaqdır.

Hesablama Palatası dövlət büdcəsinin cari, əsaslı və borca xidmətlə bağlı xərclərinin məbləğlərinin dövlət büdcəsinin icrası barədə illik hesabatda əks etdirildiyindən qismən fərqləndiyi qənaətindədir. Hesab edirik ki, bu məbləğlərin təsnifləşməsinə və hesablama metodologiyasına yenidən baxılmalıdır. Dövlət büdcəsinin icrası barədə hesabatlara əsasən 2023-cü il 31 dekabr tarixə debitor borcların məbləği 4,4 milyard manat təşkil etmişdir. Bu da 2022-ci illə müqayisədə 45,3 faiz çoxdur. İlin sonuna debitor borcların əvvəlki ilə nəzərən artımı icra edilmiş xərclərin artımını 31,6 faiz bənd üstələməklə 45,3 faiz təşkil etmişdir. Aidiyyəti orqanlar tərəfindən təqdim edilmiş məlumatdan görünür ki, bu borcun tərkibində həm 2023-cü ildə, həm də əvvəlki illərdə olan borclar mövcuddur. Ümumiyyətlə, təhlillərimiz göstərir ki, debitor borcların bağlanması üzrə Maliyyə Nazirliyi tərəfindən inzibatçılıq tədbirləri gücləndirilir. Hesab edirik ki, bu tədbirlər davam etdirilməlidir.

"Dövlət satınalmaları haqqında" Qanunla müəyyən edilmiş satınalma metodları üzrə tətbiq edilməklə 2023-cü ildə ölkə üzrə, ümumilikdə, 12483 sayda, 7,5 milyard manat məbləğində satınalma müqaviləsi bağlanmışdır. Bu da 2022-ci illə müqayisədə məbləğ baxımından 766,3 milyon manat, say baxımından 381 ədəd çoxdur. 2023-cü ilin dövlət büdcəsi xərclərinin icrasının təhlili göstərir ki, satınalma ilə əhatə olunan xərcin məbləği müvafiq xərc istiqamətlərinin məbləği ilə tam mütənasiblik təşkil etməmişdir. Qeyd edək ki, müvafiq xərc istiqamətində əvvəlki illə müqayisədə təqribən 2,9 milyard manat artması fonunda dövlət satınalmalarına cəlb edilmiş məbləğin

artımı 0,7 milyard manat olmuşdur. Təqdim edilmiş məlumatların təhlili göstərir ki, 2023-cü ildə satınalmalar arasında say baxımından bir mənbədən və açıq tender metodları daha böyük paya malik olmuşdur. Bununla yanaşı, qeyd etmək lazımdır ki, açıq tenderlərin say baxımından 3 faizi, məbləğ baxımından 55,4 faizi kağız daşıyıcılar vasitəsi ilə keçirilmişdir. Apardığımız hesablamalar göstərir ki, etender.gov.az dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə keçirilmiş dövlət satınalmalarının cəmi satınalmalarda payı say ifadəsində 58, məbləğ ifadəsində 22 faiz təşkil etmişdir ki, bu da strategiyada nəzərdə tutulmuş hədəfə say baxımından əməl edildiyini deməyə imkan verir.

Hesabat dövründə dövlət sifarişi əsasında 51 publik hüquqi şəxsə bir sıra iş və xidmətlərin həyata keçirilməsi üçün, qeyd edildiyi kimi, 442,1 milyon manat vəsait ödənilmişdir. Bu rəqəm 2022-ci ilin rəqəmindən 38,3 faiz çoxdur. Dövlət sifarişi ilə yanaşı, dövlət büdcəsinin ayrı-ayrı istiqamətləri üzrə, ümumilikdə, 8 milyard manatdan çox vəsait publik hüquqi şəxslər tərəfindən icra edilmişdir. Qeyd edək ki, bu məbləğə dövlət əsaslı vəsait qoyuluşu, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, ehtiyat fondlar, dövlət sifarişi ilə bağlı olmayan digər istiqamətlərin xərcləri də daxil edilmişdir. Publik hüquqi şəxslər tərəfindən dövlət büdcəsindən ayrılan vəsaitin icrası ilə bağlı Hesablama Palatası tərəfindən təqdim edilən hesabatların təhlili göstərir ki, publik hüquqi şəxslərin digər mənbələrdən gəlirlərinin olmaması və ya az olması fonunda saxlama xərcləri büdcə vəsaitləri hesabına təmin edilmişdir. 2023-cü ildə 44 istiqamətdə büdcədənkənar xərc icra edilmişdir. 2023-cü ildə büdcədənkənar xərclər icra edilmiş qurumların icra səviyyəsi

16,6 faizdən 100 faiz arasında dəyişmişdir. Aparılan təhlillər göstərir ki, büdcədənkənar gəliri proqnozlaşdırılsa da, daxilolma icra edilməyən 3 qurum üzrə icra prosesində xərc smetasında dəqiqləşmə aparılmaqla büdcədən çıxarılmışdır.

Hesablama Palatası tərəfindən aparılan təhlillər 2023-cü ilin dövlət büdcəsində bəzi xərclərin vahid büdcə təsnifatına uyğun nəzərdə tutulması və icrası ilə bağlı uyğunsuzluqların mövcud olduğunu göstərir. Bu da dövlət büdcəsində məlumatların düzgün əks olunmamasına şərait yaratmaqla yanaşı, bəzi hallarda qanun layihəsində və illik hesabatda əks etdirilən göstəricilərə təsir göstərir. Qeyd etməliyəm ki, 2024-cü ilin dövlət büdcəsində bu uyğunsuzluqların 80 faizi nəzərə alınmışdır.

2023-cü ildə büdcə kəsiri 1,2 milyard manat olmaqla təsdiq edilmiş yuxarı həddən 55,3 faiz az qeyd olunmuşdur. Hesabat ilində sərbəst qalıq istisna olmaqla, dövlət büdcəsi kəsirinin maliyyələşməsi mənbələrinin 88 faizini əhatə edən göstəricilər dövlət büdcəsinin icrası ilə bağlı illik hesabatla üzləşdirilmiş, müqayisəli təhlil nəticəsində kənarlaşmalar aşkar edilməmişdir. Hesabat ili üçün təsdiq edilmiş dövlət borclanmasının yuxarı həddinə hər 3 komponent üzrə – daxili dövlət borclanması, xarici dövlət borclanması və il ərzində veriləcək dövlət zəmanətləri əməl edilmişdir. Hesabat ili ərzində birbaşa xarici dövlət borcunun həcmində azalma müşahidə edilmiş, azalmanın səbəbi il ərzində kreditorlara geri ödənilmiş əsas borc ödənişlərinin həcminin yeni cəlb edilmiş kredit vəsaitlərindən artıq olmasıdır. Apardığımız nəzarət tədbirinin ilkin nəticəsi birbaşa xarici borcun hesabatlılığının doğru olduğunu və borc dayanıqlığının gözlənildiyini göstərir. Hökumətin zəmanətli öhdəliklərinin vaxtında

icra edilməsi məqsədi ilə aqrokreditin öhdəliklərinin daxili dövlət borcu kimi təsnifləşməsi, eyni zamanda, böyük həcmdə dövlət istiqrazlarının daxili bazarda yerləşməsi daxili borcun 3,8 dəfə artımı ilə nəticələnmişdir. Hesabat ilində 3,8 milyard manat dövlət istiqrazları emissiya edilsə də, 1,7 milyard manat təkrar maliyyələşmə olduğunu nəzərə alaraq, istiqraz portfeli ilin əvvəli ilə müqayisədə artaraq 2024-cü il yanvarın 1-də 6,9 milyard manat təşkil etmişdir. Bilirsiniz ki, daxili dövlət borcu iki əsas məqsədə xidmət edir.

Birincisi, kəsirin maliyyələşməsinə. 2023-cü ilin dövlət borcunun kəsirinin həcmi 1,2 milyard manatdır və bu rəqəm daxili dövlət borcu hesabına tam maliyyələşdirilmişdir. İkincisi isə investor şəbəkəsinin genişlənməsidir.

Keçən il say baxımından investor şəbəkəsinin genişlənməsi təqribən iki dəfəyə qədər artmışdır. Lakin qeyd etməliyəm ki, ümumilikdə, hesabat ilində emissiya edilən və borc portfelinə daxil olan dövlət istiqrazlarının 1,8 milyard manatı, ümumi istiqrazların isə təqribən 35 faizindən bir qədər çoxu büdcədən birbaşa və dolayısı ilə vəsait alan təşkilatlar tərəfindən alınmışdır.

Hesabat ilində təminat fondunun gəlirlərinin 85,5 faizi dövlət büdcəsi hesabına təmin edilmiş, təkrar borc sazişləri üzrə daxilolmalar əvvəlki illərin tendensiyalarına uyğun olaraq, az icra edilmiş, – daha doğrusu, 7,4 faiz, – təşkilatların təminat fondu və dövlət büdcəsi qarşısında icra edilməyən öhdəliklərin həcmi 6,1 milyard manatadək artmışdır.

Hörmətli millət vəkilləri, rəyin sonunda təklif və tövsiyələrimizi təqdim etmişik. Hesab edirik ki, tövsiyələrin nəzərə alınması dövlət maliyyəsinin idarə edilməsinin gücləndirilməsinə, o cümlədən büdcə hesabatlığının tək-

milləşməsinə xidmət edə bilər. Yuxarıda qeyd olunan araşdırmaların və təhlillərin nəticələrini ümumiləşdirərək Hesablama Palatası belə qənaətə gəlir ki, Milli Məclisə təqdim edilmiş Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabat qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanmış və təqdim olunmuşdur. Hesablama Palatası, eyni zamanda, rəydə dövlət büdcəsinin gəlirləri, xərcləri və dövlət büdcəsinin kəsiri ilə bağlı qeyd olunmuş tövsiyələr nəzərə alınmaqla, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə və 2023-cü ilin dövlət büdcəsinin icrasına dair illik hesabata baxılmasını tövsiyə edir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Buyurun, kim çıxış etmək istəyirsə, yazılın. Təklif var, 5 dəqiqə. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sabir Rüstəmxanlı. Sabir müəllim, sualınız, təklifiniz var, deyəsən. 1 dəqiqə. Buyurun.

**S.Rüstəmxanlı**. Mənim sualım və ya təklifim, ümumiyyətlə, dövlət büdcəsinin, sonra dəqiqləşdirilmiş büdcənin icrası haqqında qanunun müzakirəsi ilə bağlıdır. Təkcə indi deyil, belə bir ənənə formalaşıb və o ənənəyə mən münasibətimi bildirmək istəyirəm. Son illərdə həm hökumət, həm də Maliyyə Nazirliyi öz sənədlərini kifayət qədər peşəkarlıqla, səriştə ilə hazırlayır və çoxlu yardımçı sənədlərlə bizə təqdim edirlər. Bizim şöbələrdə, komitələrdə də bunlara baxılır və burada da müzakirə olunur. Təqdimat necə olunur? Təqdimatda həm bizim komitələr, həm də hökumət nümayəndələri məlumat verirlər. Təxminən eyni rəqəmlər orada da, burada da səslənir. Az qala

belə təsəvvür yaranır ki, hökumət bizə hesabat verir, biz də hökumətə hesabat...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sabir müəllim, bircə dəqiqə. Deyin, mikrofon versinlər.

**S.Rüstəmxanlı**. Bəzən Hesablama Palatası da sonda bəzi qeydlər istisna olmaqla, eyni şeyləri təkrarlayır. Ona görə mənə elə gəlir ki, bunun yeni bir forması tapılmalıdır. Bu müzakirələr təkrarçılıqdan və qarşılıqlı hesabatlardan çıxarılıb işgüzar şəraitdə aparılmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elə işgüzar şərait bizim müzakirələrimizdir. Əgər Siz hansı isə ayrı bir format təklif edirsinizsə, xahiş edirəm, elə həmin formatı da deyin. Bu, stenoqramdır, Milli Məclisin iclasıdır, hökumətin hesabatıdır və burada bunlar hamısı səslənməlidir. Komitədə olan müzakirələr ayrı, ancaq Milli Məclisin plenar iclasında olan müzakirənin tamamilə ayrı statusu və ayrı bir formatı var.

Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlarım. Bu gün biz çox mühüm bir dövlət sənədini, dövlət büdcəsini müzakirə edirik. Söhbət 2023-cü il dövlət büdcəsinin icrası ilə bağlı məsələlərdən və eyni zamanda, 2024-cü il üçün dəqiqləşdirilmiş dövlət büdcəsi zərfinin müzakirəsindən gedir. Əvvəla, fürsətdən istifadə edib, İqtisadiyyat Nazirliyinə təşəkkür edirəm ki, proqnozları, demək olar ki, tamamilə real vəziyyətlə üst-üst düşür, proqnozlar real həyatda da öz təsdiqini tapır. Eyni zamanda, Maliyyə Nazirliyinə, Hesablama Palatasına təşəkkür edirəm ki, büdcənin müzakirələrində çoxsaylı suallara cavablar veriblər və son nəticədə də qeydlər həmişə nəzərə alınır.

Əvvəla, büdcəmizə diqqətlə baxdıqda gəlir hissəsində dəyişikliklərin olduğu diqqətdən yayınmır. Məsələn, proqnozlar belə idi ki, təxminən 34 milyard manatdan artıq bizim büdcə gəlirlərimiz olacaq, bu da təsdiqini tapıb və eyni zamanda, dünya neft-qaz bazarındakı müsbət konyunktura da öz təsirini göstərib. İndi artıq 2024-cü ilin büdcəsinin ilkin versiyasında 36,3 milyard manatlıq büdcə gəlirlərinin olması öz əksini tapıb ki, bu da gəlirlərin artıq 6,4 faiz artması anlamına gəlir. Eyni zamanda, büdcə xərclərimizdə də 8 faizlik artım qeydə alınır ki, bu da 39,7 milyard manatlıq büdcə xərclərinin olması deməkdir. Nəticə etibarı ilə strateji yönümlü bir sıra istiqamətlər üzrə xərclərin artırılmasına imkan verəcək.

Bu gün bizim üçün ən önəmli məsələ, heç şübhəsiz ki, Azərbaycanın müdafiə və təhlükəsizlik xərcləri ilə bağlı məsələdir. Ermənistandakı revanşizm dalğası, Ermənistandakı son hadisələr, son iğtişaşlar və hakimiyyətin devrilməsinə qədər çağırışlar fonunda bizim üçün təhlükəsizlik və müdafiə məsələləri ön plana keçib. Alqışlayırıq ki, 2024-cü il üçün bizim 6,4 milyard manatlıq müdafiə və hərbi xərclərimiz 7,1 milyard manata yüksəlir. Bu, çox müsbət haldır. Eyni zamanda, bizim üçün strateji əhəmiyyətli məsələ işğaldan azad olunmuş torpaqlarımızın bərpası və yenidən qurulması ilə bağlı məsələlərdir ki, indiyə qədər 12 milyard manat vəsait bu istiqamət üçün ayrılıb. Bu da dollar ekvivalentində təxminən 7 milyard dollar deməkdir. Bu dəfə isə yenidən 855 milyon manat əlavə vəsait ayrılır. İşğaldan azad olunmuş torpaqlarımızın bərpası, yenidən qurulması istiqamətində 4 milyard 855 milyon manat vəsaitin ayrılması, heç şübhəsiz ki, bu strateji vəzifənin icrası üçün çox mühüm bir amil olacaq.

Eyni zamanda, heç şübhəsiz ki, ən əsas məsələlərdən

biri, xalqımızı həmişə düşündürən və büdcə ilə bağlı məsələlərdə diqqətdə saxladığı məqam sosial yönümlü xərclərdir. Nəzərə alsaq ki, ölkə Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı dayanır. Azərbaycan sosial yönümlü dövlətdir və təxminən 39 faizdən artıq bizim sosial xərclərimiz idi və bu tendensiya da qorunub saxlanır. Bu o deməkdir ki, 2024-cü ildə bizim dürüstləşdirilmiş büdcəmizdə də sosial yönümlü istiqamət əsas həlledici istiqamət olacaq.

Beləliklə, hesab edirəm ki, bu büdcənin qəbul edilməsi nəticəsində həm Azərbaycanın müdafiə və təhlükəsizlik imkanları genişlənəcək, həm də Azərbaycanın sosial yönümlü siyasəti daha da möhkəmlənəcək və Qarabağın bərpası istiqamətində daha ciddi addımlar atılacaq. Mən bu büdcənin lehinəyəm, müdafiə edirəm və lehinə də səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar! 2023-cü il Azərbaycan tarixində xüsusi illərdən biridir. Nəzərə alsaq ki, 2023-cü ildə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpası həyata keçirildi, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Təbii ki, 2023-cü il, eyni zamanda, iqtisadi baxımdan Azərbaycan üçün spesifik illərdən biridir. Nəzərə alaq ki, Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurma prosesi davam etdi. 2023-cü ildə keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtması prosesi intensiv olaraq davam etdirildi.

Təqdim olunmuş sənəd də göstərir ki, 2023-cü ildə

yalnız Qarabağ və Şərqi Zəngəzurun və eləcə də milli təhlükəsizliyimizin daha da güclənməsinə dövlət büdcəsindən 11 milyard 485 milyon manat vəsait ayrılıb. Bu, bütövlükdə, büdcə xərclərinin 31,5 faizi deməkdir. Bu o deməkdir ki, 2023-cü ildə büdcədən ayrılan hər 3 manatın təxminən 1 manatı Qarabağ və Şərqi Zəngəzurun bərpasına və eləcə də milli təhlükəsizliyimizin güclənməsinə xidmət göstərib. Təbii, xüsusən nəzərə alaq ki, bu xərclənmələr kontekstində, eyni zamanda, 2023-cü ildə Azərbaycanda sosial paketin dərinləşməsi müşahidə olundu. Ümumiyyətlə, son 4 sosial paketin reallaşmasına dövlət büdcəsindən əlavə olaraq 7 milyard manat vəsait ayrılıb. Yəni bir tərəfdən, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması həyata keçirilir, digər tərəfdən isə, sosial öhdəliklər dövlət büdcəsinin gəlirləri hesabına tam qarşılanır. Bu kontekstdən, təbii ki, 2023-cü ilin dövlət büdcəsinin icrasını müsbət qiymətləndirmək lazımdır. Bu, 2023-cü il üçün cənab Prezident tərəfindən müəyyənləşdirilmiş hədəflərə və eyni zamanda, milli və regional, qlobal çağırışlara uyğun olaraq, icra edilən büdcə sənədidir.

Bütün bunlarla yanaşı, təbii ki, bir sıra tövsiyələrimizi də təqdim etmək istərdik. Nəzərə alsaq ki, 2023-cü ilin dövlət büdcəsində proqnozların icra ilə uzlaşması və proqnozlara əməl edilməsi vacib istiqamətlərdən biridir və praktik olaraq büdcə sənədi ilə tanışlıq bir daha təsdiq edir, Dövlət Neft Fondunun transferləri istisna olmaqla, digər istiqamətlərdə dövlət büdcəsinə daxilolmalarda icra ilə həm ilkin proqnoz, həm də dürüstləşmiş proqnoz arasında kəskin fərq var. O kəskin fərqin olması bir daha təsdiq edir ki, əvvəllər də qeyd etdiyimiz kimi, proqnozlaşdırılma metodologiyasına baxılması və təkmilləş-

dirilməsinə ehtiyac var.

2023-cü ilin dövlət büdcəsindən xərclənmələrdə yenə də ilin sonuncu ayı aparıcı olaraq qalıb. Belə ki, 2023-cü ilin dekabr ayında dövlət büdcəsindən 7 milyard 302 milyon manat vəsait ayrılıb. Bu, 36 milyard 457 milyon manatlıq xərclənmənin təxminən 20 faizi deməkdir. Bu, eyni zamanda, o deməkdir ki, 2023-cü ildə ayrılmış hər 100 manatın 20 manatı 2023-cü ilin yalnız bir ayında və sonuncu ayında xərclənir. Eyni zamanda, məhz bu kontekstdən yalnız bir ayda 20 faiz xərcin reallaşdırılmasının, implementasiyasının şəffaflıq və səmərəlilik baxımından qiymətləndirilməsinə ehtiyac var. Eyni zamanda, statistika göstərir ki, dekabr ayında xərclənmələrin artması həm də dekabr və yanvar aylarında xarici valyutaya tələbin artmasına və pul bazasının genişləndirilməsinə gətirib çıxarıb, o baxımdan aylıq xərcləmələrdə makroiqtisadi sabitliyin qorunub saxlanması əsas meyarlardan biri olaraq qalmaqdadır.

Eyni zamanda, 2023-cü ilin makroiqtisadi yekunları göstərir ki, qeyri-neft sektoru drayver olaraq qalmaqdadır və bu da, təbii, 2023-cü ilin makroiqtisadi yekunları baxımından kifayət qədər vacib məqamdır. Digər mühüm məqamlardan biri qeyri-neft gəlirlərimizin cari xərclərdəki payıdır. Belə ki, qeyri-neft gəlirlərimizin cari xərclərə nisbəti 2 faiz azalaraq 84,3 faiz olub. Düşünürəm ki, bu rəqəm, bu göstərici də xüsusən qeyri-neft gəlirləri ilə cari xərclərin uzlaşdırılması baxımından çox vacibdir. Bütövlükdə, təqdim olunan sənədi dəstəkləyirəm. 2023-cü ilin dövlət büdcəsinin icrası ilə bağlı sənəd 2023-cü ildə müəyyənləşdirilmiş hədəflərə uyğundur. O baxımdan səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, bu ayın 24-də ölkə Prezidenti cənab İlham Əliyevin yenidən Prezident seçilməsinin və fəaliyyətə başlamasının 100 günü tamam olurdu. Əslində, bu müddət ərzində görülən işlərin masştabını və ondan əvvəlki illəri də birlikdə hesablasaq, onda görərik ki, Azərbaycanın bu gün təqdim olunan dövlət büdcəsində hansı istiqamətlərin prioritet olaraq götürülməsi səbəbsiz deyil. Birinci növbədə, diqqət edirsinizsə, ümumilikdə, müdafiə, təhlükəsizlik xərclərinə təxminən 8,9 milyard manat vəsait ayrılır. Bunun 5,8 milyard manatı müdafiə xərclərinə və 3,1 milyard manatı xüsusi müdafiə təyinatlı layihələr üzrə tədbirlərə gedir. Yəni ölkə müharibəni bitirsə də, amma müharibə riski, bütövlükdə, sərhədlərin qorunması, sülh sazişinin imzalanmaması nəticəsində bu sahəyə kifayət qədər vəsait ayırmağa məhkumdur, məcburdur və lazımdır.

Eyni zamanda, bizim 4,8 milyard manat vəsaitimiz, 9,3 milyardlıq iqtisadi fəaliyyət sahəsinə daxil olan bu qədər vəsait də işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldilir. Bütövlükdə, təsəvvür edin ki, bu vəsaitlərin fonunda 4,2 milyard manatın sosial müdafiə və sosial təminata yönəldilməsi bir sıra sahələrdə boşluqları doldurmağa imkan vermir. Amma buna baxmayaraq, yenə də birinci prioritet olaraq ölkənin təhlükəsizliyi olduğuna görə, bu büdcədə də əsas bu məsələ nəzərdə tutulubdur.

Büdcə kəsiri, təbii ki, 1,2 milyarddır. Görünür, irəlidə bu kəsir bəlkə də daha çox ortaya çıxa biləcəkdir. Amma bunun üçün mən hesab edirəm ki, – bu gün Hesablama Palatasının da peşəkarlıqla hazırlanmış rəyində göstərildiyi kimi, – daxili borcun sistemində müəyyən dərəcədə

istiqamət daha dürüstləşdirilməlidir. Burada büdcə kəsirinin maliyyələşdirilməsi üçün istiqrazların buraxılmasında diqqət edirsən ki, 80 faiz istiqrazı alan cəmi 3 hüquqi şəxs var. Bu o deməkdir ki, hüquqi şəxslərin çərçivəsi çox məhdud səviyyədədir. Təsəvvür edin ki, 90 milyon manatlıq istiqrazlar, yəni daxili borclar fiziki şəxslərə aiddir. Fiziki şəxslərin bu qədər az olması onu göstərir ki, əslində, dövlətin müəyyən dərəcədə probleminin həllində hələ də bu subyektlər lazımi səviyyədə cəlb oluna bilməyiblər.

Bu sahələrə vəsait ayrılması bizə həm də digər sahələri unutmağa imkan vermir. Mən hesab edirəm ki, mədəniyyət və incəsənət sahəsinə ayrılan vəsait – 198 milyon manatlıq vəsait az hesab olunmalıdır. O baxımdan ki, bizim sənət adamları, ümumiyyətlə, mədəniyyət sahəsində çalışan işçilərin böyük əksəriyyəti çox aşağı maaşa malikdir. Bu cür yaradıcı potensialın ölkədə kifayət qədər aşağı düşməsinə gətirib çıxarır.

Burada publik hüquqi şəxslərlə bağlı məsələdə çox ciddi islahata ehtiyac var və düşüncə dəyişməlidir. 51 publik hüquqi şəxsə, – 2022-ci ildə bu, 40 olubdur, – 442 milyon manat büdcədən vəsait ödənilir və bu il 122 milyon manat da artıbdır. Bunun axı, iqtisadi mahiyyəti, bütövlükdə, dövlətin büdcə yükünü azaltmaqdır. Amma bu, get-gedə büdcə yükünü artırır. Deməli, bunun yaradılmasının məqsədəuyğunluğu məsələsinə bir daha baxılmalıdır. Yəni publik hüquqi şəxslər dövlət sifarişlərinin əksəriyyətinin öhdəliklərini yerinə yetirə bilmirlər. İstisna olaraq, bəzi publik hüquqi şəxslər bu rolu ifa edirlər.

Digər tərəfdən, dövlət ümumi təhsil müəssisələri ilə bağlı xidmət xərclərində, məsələn, proqram xarakterli hesab olunmamalı tədbirlərin xərclərinin əksər hallarda bir sıra sahələr üzrə proqram kimi təqdim olunması ənənəsi

də, məncə, yığışdırılmalıdır. Çünki bu da vəsaitin izafi xərclənməsinə gətirib çıxarır.

Bütövlükdə, biz özəlləşməyə xüsusi diqqət yetirib bu sahədə gəlirlərin artması istiqamətinə baxmalıyıq. Dividendlərin dövlətin səhm payı olan şirkətlər, səhmdar cəmiyyətlər tərəfindən alınmasına daha çox diqqət yetirilməsi vacibdir.

Hesab edirəm ki, büdcə layihəsi Azərbaycanın iqtisadi inkişafına dəstək verə biləcək mahiyyətdədir və dəstəkləyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun.

**T.Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli hökumət üzvləri və deputat həmkarlar. Uzun illər torpaqları işğal altında olan və müharibədən yenicə çıxan bir dövlətin büdcəsində hər il artımın olması, insanların sosial rifahının yüksəldilməsinə, ölkənin müdafiə və milli təhlükəsizliyinin təmin olunmasına, işğaldan azad olunmuş ərazilərin bərpasına daha çox maliyyə vəsaitinin ayrılması qürurvericidir. Bu, dayanıqlı və davamlı iqtisadi inkişafımızdan, düzgün maliyyə və vergi siyasəti aparılmasından xəbər verir. 2023-cü il dövlət büdcəsinin icrası bu baxımından xarakterikdir.

2024-cü ilin yanvar–aprel aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri 13 milyard 259 milyon manat, xərcləri isə 10 milyard 749,5 milyon manat təşkil edir ki, bu artım da ali maliyyə sənədində dəyişikliklərin edilməsini zərurətə çevirmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə tikinti, bərpa və yenidənqurma işlərinə, avtomobil yolu, elektrik enerjisi, su təchizatı və digər layihələrin həyata keçirilməsinə göstərdiyi səylər və verdiyi tapşırıqlar, həyata keçirdiyi tədbirlər vətəndaş-

larımız tərəfindən yüksək qiymətləndirilir və köçkünlərimizin tez bir zamanda öz ata-baba yurdlarına qayıtmasına şərait yaradır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması, abadlıq-quruculuq işlərinin sürətləndirilməsi iqtisadiyyatımızın yüksəlişinə yeni imkanlar açacaq, aqrar sektorun, turizmin inkişafını təmin edəcəkdir. Bunun üçün əlavə maliyyə vəsaitlərinin ayrılması günün tələbidir və büdcədən istənilən vəsaitin ayrılması Böyük Qayıdışın tezləşməsinə, insanlar üçün normal həyat şəraitinin yaradılmasına, ərazilərin abadlaşdırılmasına zəmanətdir. Bu məqsədlə 1 milyard 160 milyon manat vəsaitin ayrılması qəbuledilləndir.

Dünyada və regionda mövcud olan geosiyasi və hərbi vəziyyət ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsini, milli təhlükəsizliyinin təmin edilməsini əsas vəzifə kimi qarşıya qoyur. Son 3 ildə hərbi, müdafiə infrastrukturunun müasirləşdirilməsi, hərbi quruculuq tədbirlərinin genişləndirilməsi, sərhədlərimizin möhkəmləndirilməsi və yeni layihələrin həyata keçirilməsi əlavə vəsaitlər tələb edir və dövlət büdcəsindən bu sahəyə əlavə 807 milyon manat vəsaitin ayrılmasının nəzərdə tutulması təqdirəlayiqdir.

Dövlət büdcəmiz sosial yönümlüdür. Büdcədə gəlir və xərclərin 3 milyard manatdan çox artırılması, sözsüz, sosial məsələlərin, sosial təminatın həllinə istiqamətləndirilib və bu, gələcək mənalı həyat üçün vacib və əhəmiyyətlidir. Dövlət Sosial Müdafiə Fondunun xərclərinin 30 milyon manat artırılması bunun nümunəsidir.

Büdcə artımının 3 vacib xətt üzrə istiqamətləndirilməsi digər vacib sahələrin unudulması demək deyil. Dövlətin aydın proqramı var və büdcə gəlirlərində bütün sahələr

nəzərə alınmışdır. Azərbaycanın dünyada artan beynəlxalq nüfuzu, beynəlxalq fəaliyyətin genişləndirilməsi tələb edir ki, bu sahəyə əlavə vəsaitlər ayrılsın.

Vergi və gömrük orqanları xətti ilə qeyri-neft sektoru üzrə daxilolmaların həcminin ildən-ilə artması yaxşı haldır və bu sahədə çalışanların yüksək fəaliyyəti kimi dəyərləndirilməlidir.

Yeni dövr, yeni reallıqlar qarşıya yeni tələblər, yeni vəzifələr qoyur. Seçildiyimiz regionların əhalisinin tələbləri də yaddan çıxmayıb, gündəmdədir. Ancaq yeni dövr daha vacib olan məsələləri gündəmə gətirməyi və həll etməyi tələb edir. Bu tələblər isə 2024-cü ilin dəqiqləşdirilmiş dövlət büdcəsi zərfində aydın əks olunmuşdur və reallıqların nümunəsidir.

Mən büdcə layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Hörmətli sədr, qonaqlar, həmkarlar, media nümayəndələri. Mən ilk öncə, hörmətli sədr, Sizi son səfərinizə və uğurlu parlament diplomatiyasına görə təbrik edirəm. Dünən də parlamentdə “Fransız Polineziyasının dekolonizasiya hüququ: çağırışlar və perspektivlər” mövzusunda konfrans keçirildi. Hesab edirəm ki, bu konfrans da çox uğurlu bir tədbir oldu.

Hörmətli həmkarlar, dünən Moskvada “Lazarev klubu” adı altında erməni, rus millətçiləri tərəfindən beynəlxalq konfrans təşkil edilib və həmin konfransda Dövlət Dumasının komitə sədrinin müavini, hakim partiyanın üzvü Zatulin 2022-ci ildə Azərbaycanla Rusiya arasında imzalanmış Moskva Bəyannaməsinə tam zidd olaraq, Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini

şübhə altına alan, separatizmi və revanşizmi qızışdıran bəyanatla çıxış edib. Baxmayaraq ki, həmin sazişə əsasən tərəflər separatizmə qarşı birgə mübarizəyə dair öz üzərilərinə öhdəlik götürmüşdülər. Görünür, qana susamış bu adam üçün tökülən qanlar yetərli deyil və Moskva Bəyannaməsinin dəyəri onun üçün sazişin imzalandığı kağızın dəyəri qədər də deyil. O, bir qrup revanşist separatçını başına yığaraq Azərbaycan əleyhinə kampaniya təşkil etmiş, yığıncaqda bəyan etmişdir ki, Qarabağda erməni xalqının öz müqəddəratını təyin etmək hüququ zorakılığa məruz qalmışdır. Ona görə təklif edirəm, Xarici İşlər Nazirliyi Rusiyaya nota versin, bu cür məsuliyyətsiz və Rusiya–Azərbaycan münasibətlərinə ziyan vuran ünsürlərin təxribatçı fəaliyyətinə son qoyulmasını tələb etsin.

Başqa bir vacib məsələ, bu da birbaşa hökumətin fəaliyyəti ilə bağlı məsələdir. 2–3 gün bundan öncə türkiyəli millət vəkili Ömər Faruk Gərgərlioğlu çıxış edərək bəyan edib ki, Azərbaycan polisi Türkiyə vətəndaşlarının hüquqlarını Azərbaycanda pozur və Azərbaycan yetkililəri buna cavab verməlidir. Araşdırma aparmadan 1 nəfərin şikayəti əsasında belə ciddi ittihamla çıxış etmək bizim qardaşlıq münasibətlərinə sığmır. Qanunçuluğun keşiyində dayanan polisin imici dövlətin imicidir. Hazırda Azərbaycana qarşı düşmənçilik edən bəzi Qərb dairələrinin əlində oyuncağa çevrilmiş insanlar bundan istifadə edib sosial şəbəkələrdə ölkəmizin əleyhinə böyük bir kampaniya başladıblar.

Bu cür çıxışlarla polisin, dövlətin beynəlxalq imicini korlamaqla ölkəyə investisiya qoyuluşunun qarşısını alırlar. Daxili işlər naziri azsaylı nazirlərdəndir ki, deputatların müraciətlərini şəxsi nəzarətə götürür və

şəxsən cavab verir. Ömər Faruk maraqlansaydı və xoşniyyətli olsaydı, əsl həqiqəti üzə çıxara bilərdi. Çox təəssüf ki, o da Azərbaycana qarşı belə bir çirkin kampaniyaya qoşulub.

Soruşuram, Türkiyədə azərbaycanlıların hüquqları pozulmur? Naxçıvandan bir tikə çörək dalınca Türkiyəyə pənah aparmış vətəndaşlarımızın qul kimi istismar olunmasına dair faktlar var. Xəstəxanalarda, ictimai iaşə obyektlərində, taksilərdə vətəndaşlarımız ağlasığmaz dərədə aldadılır.

Hesab edirəm, Milli Məclisin rəhbərliyi Türkiyə Böyük Millət Məclisinin rəhbərliyi ilə əlaqə saxlamalıdır. Biz belə fəaliyyətin pislənməsinə nail olmalıyıq.

Hörmətli həmkarlar, Azərbaycan Respublikası Konstitusiyasının "Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər" adlanan 95-ci maddəsinin 5-ci bəndinə görə Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət haqqında qanun qəbul etməlidir. Əslində, bu qanunun tənzimlənmə predmetini büdcənin icrasına nəzarətin necə təmin edilməsi təşkil etməlidir. İctimai münasibətləri tənzimləyən hər hansı sənədin qanunla təsdiq olunması onun qanun qüvvəsi alması deməkdir.

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa görə, qanun tənzimlənmə predmeti olan "qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd"dir. Konstitusiyada büdcənin icrasına nəzarət haqqında qanunun qəbul olunması tələb olunsa da, biz hər il "Büdcənin icrası haqqında" Qanun qəbul edirik. Bu

qanun hansı münasibətləri tənzimləyir? Qanunun heç bir tənzimlənmə predmeti yoxdur və dəfələrcə tətbiq üçün nəzərdə tutulmur.

Biz, əslində, büdcənin icrasına nəzarət haqqında qanun qəbul etməliyik. Bax, indi bu gün biz qanunu qəbul etməsək, bu hansı hüquqi nəticələr doğuracaq? Ona görə, təklif edirəm ki, Nazirlər Kabineti haqqında Konstitusiya qanunu qəbul olunsun. Orada Nazirlər Kabinetinə etimad məsələsi, Nazirlər Kabinetinin hesabatının verilməsinin çərçivəsi müəyyənləşdirilsin. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. "Büdcə sistemi haqqında" Qanunun 23-cü maddəsinə əsasən gəlir və xərclər arasında tarazlığın təmin olunması üçün dövlət büdcəsinə yenidən baxılması zəruri şərt kimi meydana çıxır. Sevindirici haldır ki, son illər büdcənin icrası prosesində dövlət büdcəsinə yenidən baxılması zərurəti hansısa köklü iqtisadi problemin deyil, məqsədyönlü fəaliyyətin nəticəsi kimi gündəmə gəlir. Bu, ilk növbədə Azərbaycan dövlətinin qüdrətinin ifadəsidir.

Bu gün dünyada elə çətin və mürəkkəb geosiyasi situasiya hökm sürür ki, bir çox dövlətlər üçün nəinki inkişafa nail olmaq, hətta cari mövqelərini qorumaq böyük uğur sayılır. Amma cənab İlham Əliyevin məqsədyönlü tədbirləri makroiqtisadi sabitliyə və artıma mühüm töhfə verməklə Azərbaycanda uzunmüddətli dövrdə ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacaq sağlam və tarazlı iqtisadi artım formalaşdırıb. Hər bir vətəndaş fərqində olmalıdır ki, bu situasiya kiminsə bizə atası, yaxud hədiyyəsi deyil. Bu, məhz cənab İlham Əliyevin nail olduğu nəticədir.

Dörd bir tərəfimiz, sözün əsl mənasında, od tutub yanır. Qonşu Gürcüstanda duruma, Ermənistanda vəziyyətə, çoxsaylı sanksiyalara məruz qalan Şimal və Cənub qonşularımıza baxın. Cənab Prezidentin dediyi kimi, Azərbaycan sabitlik adasıdır, həm təhlükəsizlik, həm də iqtisadi durum baxımından. Təbii ki, bu da cənab İlham Əliyevin əsəridir.

Bilirsiniz, əslində, Azərbaycan qələbəsini də, bugünkü iqtisadi uğurlarını da daha əvvəllər əldə edə bilərdi. Amma bir daha deyirəm, 1991–1993-cü illərə qədər, iki illik müddətdə ölkəni necə taladılarsa, iqtisadiyyata, əlaqələrə necə zərbə vurdularsa, o iki illik dövrün çirkabını təmizləmək bizə 30 ilə başa gəldi.

İndi biz erməniləri misal gətiririk ki, Ağdam, Kəlbəcər və Laçından, o cümlədən Qazaxın 4 kəndindən çıxarkən vandallıq edirlər, evlərə, sahələrə od vurub çıxırlar – bu nümunələr var. O vaxt, bax, bu antimilli ünsürlər Azərbaycan xalqı israrla Heydər Əliyevin gəlməsini tələb edəndə ölkəyə, dövlətə, büdcəyə, iqtisadiyyata qarşı həmin vandallığı etdilər ki, Heydər Əliyev dağıdılmış, acyalavac bir ölkənin rəhbərliyində uğur qazanmasın.

İndi həmin o ünsürlərdən biri özünə lider, biri iqtisadçı deyir, monitorun qarşısında, sözün əsl mənasında, psixi pozuntu həddinə çatıblar. Nə uğur qazanılır, deyirlər, bizim təklifimizlə, bizim tələbimizlə olub. Sən müharibə vaxtı Ermənistana benzin satan adamsan, sən hansı təklifdən, uğurdan danışırsan? Xaricdə 2–3 natamam qəzet məqaləsi oxuyan, yaxud da telefonundan birjaya qoşulan kim varsa, iqtisadi proqnozlar verir, hökumətə yol göstərməyə çağırır. Qərbdən maliyyələşən muzdlu media da onları görkəmli iqtisadçılar kimi ictimai rəyə sırımaq üçün səfərbər olub. Amma bu gün Azərbaycan xalqı üçün

bunların heç biri maraqlı deyil, vətəndaşlar üçün maraqlı olan real mənzərədir. Azərbaycan xalqı üçün qiymətli olan verilən vədlərin yerinə yetirilməsidir. Vətəndaş görür ki, ölkənin Prezidenti nə vəd veribsə, artıqlaması ilə yerinə yetirib. İnsanlar görür ki, iqtisadi inkişafdan qaynaqlanan yüksək imkanlar təhlükəsizliyin təmini üçün güclü potensial yaradıb. Azərbaycan artıq sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkədir.

Xüsusən cənab İlham Əliyevin böyük zəfərindən sonra işğaldan azad edilmiş ərazilərin ümumi iqtisadiyyata reinteqrasiyası Azərbaycanın inkişafına böyük təkan verməkdədir. Milli sosial rifah səviyyəsinin davamlı artması qarşısında bu gün faktiki heç bir əngəl yoxdur. Azərbaycan artıq Cənubi Qafqazın lider dövləti olaraq region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində həlledici rol oynayır.

2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi də göstərir ki, inkişafın qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməsi, uzunmüddətli, davamlı və sürətli olması üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi, dövlət və özəl əməkdaşlığının güclənməsi uğurla davam edir. Yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq, özəl təşəbbüslərə əsaslanan iqtisadi artımın sürətlənməsi isə, eyni zamanda, bizə imkan verir ki, milli prioritetlərin icrasını, xüsusən Azərbaycanın yeni inkişaf magistralının nüvəsini təşkil edən azad edilmiş ərazilərə əhalinin ləyaqətli və təhlükəsiz qayıdışını sürətləndirək.

Təsəvvür edin, möhtərəm Prezidentin andiçməsindən heç 4 ay ötməyib, amma artıq Şuşaya, Xocalıya, Laçının Sus kəndinə köç başlayıb. Yalnız qeyd olunan dövr ərzində, andiçmədən bəri 10-dan çox kənd və qəsəbənin təməli qoyulub. Təbii ki, bu reallığın kökündə qətiyyət,

düzgün idarəçilik, ən əsası isə uğurlu iqtisadi siyasət dayanır. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə quruculuq, bərpa işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, bir sıra digər layihələrin həyata keçirilməsi, digər dövlət vəzifələrinin yeni şəraitə uyğun formada realizəsi üçün mövcud layihəni, təbii ki, dəstəkləyirəm. Dövlətimiz və xalqımız üçün xeyirli, uğurlu olsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**K.Bayramov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar və hökumət nümayəndələri. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və müvafiq rəylərlə tanış olduqca, ötən ili ölkənin sosial-iqtisadi inkişafı baxımından uğurlu və məhsuldar il hesab etmək olar.

Büdcənin icrası ilə bağlı vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi, yaşayış səviyyəsinin yaxşılaşdırılması, yeni sosial infrastrukturun yaradılması bir daha sübut edir ki, əhalinin sosial təminatı dövlətimizin diqqət mərkəzindədir. Eyni zamanda, büdcədə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, müdafiə və təhlükəsizlik üçün ayrılmış vəsaitlərin icrası göz qabağındadır. Həmin ərazilərlə yanaşı, ölkəmizin digər bölgələrinin də sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı işlər xüsusi qeyd olunmalıdır.

Fürsətdən istifadə edərək, seçildiyim 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsinin bəzi yaşayış məntəqələrində 3 gün əvvəl keçirdiyim görüşlər zamanı seçicilər tərəfindən qaldırılmış və həlli çoxdan gözlənilən məsələlərin bir qismini iclasda iştirak edən hökumət nümayəndələrinin diqqətinə çatdırmaq istərdim.

Belə ki, Şəmkir rayonu üzrə Qapanlı, Könüllü, Yeni-

abad, Aşağı Seyfəli və Xuluf kəndlərində uşaq bağçalarının əsaslı təmirinə və ya yenidən tikilməsinə, Könüllü, İsgəndərli, Nərimanlı və Yuxarı Seyfəli kəndlərinin içməli su təminatına, Qapanlı–Düzqışlaq yolunun, Çinarlı–Yuxarı Seyfəli–Mehrili–Nərimanlı yolunun və Xuluf–Keçili–Qədimqala yolunun əsaslı təmirinə böyük ehtiyac vardır.

Eyni zamanda, seçicilərim kənd orta məktəbləri ilə bağlı da çoxsaylı müraciət edirlər. Məsələn, Könüllü, Mahmudlu, Yuxarı Seyfəli, Aşağı Seyfəli, Xuluf və Keçili kəndlərinin orta məktəbləri yararsız vəziyyətdə olduğundan, onların əsaslı təmirinə də ciddi zərurət yaranıb.

Daşkəsən rayonu üzrə isə seçicilərimi ən çox narahat edən problemlərdən biri 38 kilometr uzunluğunda olan və sonuncu dəfə 2006-cı ildə, yəni 18 il əvvəl əsaslı təmir edilmiş Gəncə–Daşkəsən avtomobil yolunun yararsız vəziyyətə düşməsidir. Bu yolun alternativi olmadığından, rayon ərazisində bütün nəqliyyat vasitələri, o cümlədən ağır tonnajlı yük avtomobilləri də həmin yolla intensiv hərəkət edirlər. Nəticədə avtomobil yolunun asfalt örtüyü tam yararsız hala düşüb, nəqliyyatın hərəkətində müəyyən çətinliklər yaranıb. Buna görə də Gəncə–Daşkəsən yolunun əsaslı təmirinə də ciddi ehtiyac vardır.

Seçiciləri narahat edən digər bir məsələ Daşkəsən peşə məktəbi ilə bağlıdır. Bu məktəb 1961-ci ildə inşa olunaraq 1979-cu ildən fəaliyyət göstərir. 2 mərtəbədən, ümumi sahəsi 2897 kvadratmetr olan 14 sinif otağından ibarətdir. Hazırda peşə məktəbinin 8 sinfində 156 şagird təhsil alır və 30 nəfər işçi çalışır. Məktəb fəaliyyət göstərdiyi müddətdən indiyədək əsaslı təmir olunmadığından, tam yararsız vəziyyətə düşüb. Ona görə də məktəb binası əsaslı təmir olunmalıdır.

Hörmətli hökumət nümayəndələrindən sadaladığım

problemlərin həlli üçün zəruri tədbirlərin görülməsini xahiş edirəm. Bütövlükdə, layihəyə səs verəcəm, həmkarlarımı da ona səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamran müəllim, büdcə müzakirələrində Siz bunları səsləndirmişdiniz?

**K.Bayramov.** Qismən.

**Sədrlik edən.** Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, hörmətli hökumət və parlament üzvləri. Dövlət büdcəsinin icrasını qiymətləndirərkən regional və beynəlxalq hərbi-siyasi böhranlar şəraitində milli təhlükəsizliyimizin təmin olunması, ən başlıcası tarixi Xankəndi zəfəri, yeni qalib 100 ilin başlanması 2023-cü ilin ən parlaq hadisələridir.

Əhatə olunduğumuz regionda embarqo və sanksiyalara məruz qalmayan, tək uzlaşdırıcı dövlət statusu, Böyük Qayıdış kursu, dövlət rəhbərinin Xocalıya tarixi dönüşü həyata keçirərkən dediyi "Qarabağ və Şərqi Zəngəzur zonasını güclü istehkama çevirəcəyik" vurğusu 1990-cı illərin məğlubiyyət səbəblərini birdəfəlik istisna etməyə və gələcək təhlükələri neytrallaşdırmağa xidmət edən və ötən ildə görülən işlərin əsas hədəfləri olub.

Büdcənin icrası ilə bağlı vəziyyəti qiymətləndirərkən 2023-cü ilin son 6 ayında informasiya, media məkanında tirajlanan bir neçə problemi burada da səsləndirmək istəyirik.

Birinci olaraq, sosial mediada ən çox müzakirə olunan məsələlərdən biri minimum və orta aylıq əmək haqqı ilə bağlıdır. Xüsusi ilə bu göstəricilərə görə regional müqayisədə Gürcüstan və Ermənistanın ölkəmizdən irəli keçməsi diqqəti cəlb edir. Əlbəttə, Rusiyanın sanksiyalara məruz qalmasının belə süni vəziyyət yaratdığı bəllidir.

Qonşu ölkələrin rəqəmlərindəki sıçrayış iqtisadiyyatın əsas sahələr üzrə köklü inkişafının nəticəsi deyil.

Lakin gəlin mənzərəyə obyektiv baxaq. Azərbaycanda orta aylıq əmək haqqı 557, Ermənistanda 710, Gürcüstanda 748 dollardır. 2023-cü ildə də rəqəmlər oxşar olub. Biz Cənubi Qafqazda liderliyimizi qorumaq üçün daha təsirli tədbirlərimizi də gücləndirməliyik.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası sənədinə əsasən hökumətin hədəflərindən biri minimum maaşı orta aylıq əməkhaqqının 60 faizinə çatdırmaq idi. Ancaq rəsmi rəqəmlər hədəfə hələ çatmadığımızı göstərir.

Əhalinin orta təbəqəsinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün kənd təsərrüfatına yeni imkanların yaradılması, xüsusi ilə vergi və kredit faizlərinin azaldılması informasiya lentlərində qırmızı xətlə keçir. Müqayisə üçün ekspertlərin mövqeyi maraq doğurur. Gürcüstanın ərazisi Azərbaycandan 19,5 faiz, əhalisi isə Azərbaycan əhalisindən 2,7 dəfə azdır. Azərbaycan Gürcüstana ixrac etdiyindən 5,3 dəfə çox ərzaq məhsulları idxal edir. Belə ki, Azərbaycan Gürcüstana 13 milyon dollar dəyərində yeyinti məhsulları ixrac etdiyi halda, oradan 71 milyon dollarlıq ərzaq məhsullarını gətirir. Fərqi nəzərə alsaq, ölkəmizdən çıxarılan 58 milyon dollar, yəni 100 milyon manata yaxın vəsait burada qalsaydı, sahibkarlığın inkişafına töhfə olardı.

Qiymətlərin artımı və inflyasiyanın səviyyəsi ilə bağlı məsələlər də informasiya məkanında geniş yer tapır. İnflyasiyanın pik dövründə qida inflyasiyası 20 faizi keçib. Əhalinin xərclərinin yarıdan çoxunun ərzaq məhsullarına yönəldiyini nəzərə alsaq, aztəminatlı əhali qrupu inflyasiyadan əziyyət çəkir.

Mediada xüsusi vurğulanan məsələlərdən biri də dövlət proqramlarının icra vəziyyətinə dair məlumat platformasının mövcud olmamasıdır. Əlbəttə, onlarca uğurlu layihədən ötən illər ərzində haqlı olaraq burada geniş bəhs etmişik. Lakin məsələn, məişət tullantılarının idarə edilməsi üzrə obyektlərin tikintisi 2018–2022-ci illər üzrə dövlət proqramında nəzərdə tutulduğu kimi, tam gerçəkləşsəydi, Göyçaydakı o məlum zibil tullantılarının axını ilə bağlı səhnə COP29 böyük sammiti, zirvə görüşü ərəfəsində düşmənlərimizin əlində ölkəmizə qarşı bir silaha çevrilməzdi.

Digər bir məsələ Açıq hökumət platformasından çıxandan sonra yaranan problemlərlə bağlıdır. Mərkəzi Bankın Hökumət Ödəniş Portalını ləğv etməsi mikro sahibkarlığa mənfi təsir edib. Yeni sistemdə əsas problem vergi ödənişi zamanı böyük məbləğlər üçün komissiya haqqının yüksək olmasıdır. İkincisi də, ödəniş etdikdən sonra arxivi tapmaq olmur.

Azərbaycanda ambulans çatışmazlığı və tibbi yardımın bəzən gecikməsi ilə bağlı məsələyə diqqət çəkmək istəyirəm. Bakıda 139 təcili yardım maşını fəaliyyət göstərir. Rəsmi olaraq Bakıda 2,5 milyon əhalimiz qeydiyyatdadır, amma bilirik ki, qeyri-rəsmi rəqəmlər bundan yuxarıdır. 18 min nəfərə 1 ambulans düşür. Yollardakı tıxac durumu. Mən başqa ölkələrlə müqayisə apara bilərdim. Narkotiklərlə bağlı məsələyə də toxunmaq istərdim. Amma bunları yazılı mətndə yayacağıq.

Əlbəttə ki, büdcə uğurlarını hamımız qeyd edirik...

**Sədrlik edən.** Sağ olun. Təklif var, səsə qoyulsun. Etiraz edən yoxdursa...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, gəlin onda məsələni səsə qoyaq.

Hörmətli həmkarlar, xahiş edirəm, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasımızda iştirak edən hörmətli qonaqlarımıza mən "çox sağ olun" deyirəm. İşinizə davam edə bilərsiniz. Sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuşda müzakirə olunacaq. Onu da deyim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Anar müəllim Kərimov, Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyəti sədrinin müavini hörmətli Zəka Mirzəyev və nazirliyin Sosial sığorta, pensiya siyasəti şöbəsinin müdiri hörmətli Elnur Abbasov iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, bildiyiniz kimi, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa müəllimə söz verirəm. Musa Quliyev, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Əmək pensiyaları haqqında" Qanunda təklif olunan dəyişikliklər barədə qanun layihəsi birinci oxunuşda konseptual baxımdan Milli Məclisdə ətraflı təqdim olunmuş və ətraflı müzakirə edilmişdir. Birinci oxunuşda müzakirə zamanı çıxış edən və qanun layihəsini dəstəkləyən deputat həmkarlarımıza komitəmizin minnətdarlığını bildirirəm. Eyni zamanda, qeyd etmək istəyirəm ki, birinci oxunuşda qanun layihəsi ətrafında hörmətli deputat həmkarlarımız Qüdrət Həsənquliyev, Əli Məsimli və Fəzail Ağamalı çıxış edərək münasibətlərini bildirmiş, təkliflərini vermiş və qanun layihəsi subyektinə suallarını ünvanlamışdılar. Qaldırılan məsələlər və verilən suallar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyində olan şəxslərin iştirakı ilə komitədə ikinci oxunuş zamanı ətraflı müzakirə olunmuş, suallara aydınlıq gətirilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən arayış şəklində sualların cavabları komitəyə təqdim olunmuşdur. Deputat həmkarlarımızla əlaqə saxlayaraq fikir mübadiləsi aparmışıq və sualları da cavablandırmışıq.

Hörmətli həmkarlar, ikinci oxunuşun tələblərinə uyğun olaraq, qanun layihəsini qısaca yenidən diqqətinizə təqdim etmək istəyirəm. Qanun layihəsi iki maddədən ibarətdir. Birinci maddə "Əmək pensiyaları haqqında" Qanunda dörd istiqamətdə dəyişikliyi özündə ehtiva edir. Birinci istiqamətdə dəqiqləşdirmə xarakterli dəyişikliklərdir ki, bunlar "Əmək pensiyaları haqqında" Qanunun 9.5-ci, 9.5-2-ci, 9.6-cı və 20.14.2-ci maddələrini əhatə edir. İkinci istiqamətdə olan dəyişikliklər bir səlahiyyət müddətində

sığorta stajı olan şəxslərin pensiya təminatının sığorta pensiyası prinsiplərinə uyğunlaşdırılması istiqamətində dəyişikliklərdir ki, bu dəyişikliklər bu qanunun 20.2-ci, 20.3-cü, 20.6-cı, 20.9-cu və 20.10-cu, 20.21-ci, 20.22-ci və 20.16.2-ci maddələrini əhatə edir. Üçüncü istiqamətdə dəyişiklik hərbi xidmət dövründə xəstələnmə səbəbindən sağlamlıq imkanları 81–100 faiz məhdudlaşan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə yönələn dəyişiklikdir. Bu dəyişikliyə görə hərbi xidmət zamanı xəstələnmə səbəbindən sağlamlıq imkanı məhdudlaşan keçmiş hərbi qulluqçuların pensiyası onların təminat xərclərinin 60 faizindən deyil, 70 faizindən hesablanacaq ki, bu da onların pensiyasının artmasına səbəb olacaqdır. Nəhayət, sonuncu istiqamətdə dəyişiklik avtomatlaşdırılmış və praktik pensiya təminatının hüquqi bazasının genişləndirilməsinə xidmət edən dəyişikliklərdir. Bu dəyişikliklər qanunun 31.1-1-ci, 34.1-ci, 34.2-ci maddələrini əhatə edir.

Qanun layihəsinin 2-ci maddəsi "Keçid müddəaları"nı və qanunun qüvvəyə minmə vaxtını müəyyən edir. Bu müddəaya görə qanun bu il iyulun 1-dən qüvvəyə minəcəkdir və qanunun tətbiq dairəsi isə bu qanun qüvvəyə minənə qədər 1 səlahiyyət müddətində sığorta stajı olan şəxslərə aid edilməyəcək. Yəni bundan sonrakı şəxslərə aid ediləcək.

Bir daha hər birinizə təşəkkür edirəm və demək istəyirəm ki, birinci oxunuşdakı müzakirələrdə verilən təkliflər aktual təkliflərdir. Komitə bu təklifləri dəstəkləyir və gələcəkdə nəzərə alınacaqdır. Təşəkkür edirəm, ikinci oxunuşda səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də biz qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. İndi

isə xahiş edirəm, bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Kimin sualı var və ya çıxış eləmək istəyirsə, yazıla bilər.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur, ona görə də mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam.

Hörmətli həmkarlar, bu layihə üç maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

Nəhayət, mən sonuncu, 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bizim 3-cü məsələmiz "Vergitutma bazasının aşınması və mənfəətin

köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya”nın təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihə beynəlxalq sənədin təsdiq edilməsi ilə bağlı olduğuna görə bir oxunuşda baxılıb qəbul edilməlidir. Bildiyiniz kimi, bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbidir.

Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Vüqar Bayramova söz verirəm. Vüqar müəllim, buyurun, məlumat verin.

**V.Bayramov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan iqtisadiyyatının daha da liberallaşması, eyni zamanda, vergi bazasının həm dəyər, həm də coğrafi baxımdan genişləndirilməsi beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da aktuallaşdırıb. Nəzərə alsaq ki, Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı – OECD ilə birbaşa əməkdaşlıq edir və bu əməkdaşlıqda da məqsəd həm vergidən yayınmanın qarşısının alınması, həm risklərin minimallaşdırılması, həm də vergi toplanmasında sui-istifadə hallarının aradan qaldırılmasından ibarətdir. O baxımdan təqdim olunan çərçivə konvensiyası, bir tərəfdən, vergitutmada yeni alətlərdən istifadə olunması, şəffaflığın gücləndirilməsi, eyni zamanda, vergidən yayınma hallarının qarşısının alınması və bu sahədə intizamın gücləndirilməsi baxımından vacibdir.

Nəzərə alsaq ki, hörmətli həmkarım Azər Kərimli qanun layihəsinin beynəlxalq istiqamətləri ilə bağlı məlumat verəcək, o baxımdan mən qanun layihəsinin iqtisadi

tərəflərini qısa olaraq təqdim eləmək istərdim. Azərbaycan Respublikası ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı arasında vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi layihələri çərçivəsində Azərbaycan artıq 2022-ci il dekabrın 19-dan etibarən əməkdaşlıq edir və inklüziv çərçivəyə assosiativ üzv olaraq qoşulub. Bu layihə çərçivəsində ölkəmiz inklüziv çərçivənin 15 fəaliyyət planı üzrə əməkdaşlıq edir və həmin fəaliyyət planlarının 4-ü ilə bağlı minimum standartlarla yanaşı, həm də iqtisadiyyatın rəqəmsallaşmasından irəli gələn vergi məsələlərini həll etmək üçün müəyyən edilmiş tədbirləri həyata keçirmək öhdəliyi götürülmüşdür. Bu öhdəliklərə uyğun olaraq, təbii ki, 15-ci fəaliyyət planı çoxtərəfli alət adlanır və inklüziv çərçivəyə üzv olan dövlətlərdə çoxtərəfli konvensiyanı imzalamaqla qüvvədə olan vergi sazişlərinə daha asan və çevik yolla maddələrin əlavə edilməsini özündə ehtiva edir. Nəzərə alsaq ki, yeni anlaşma, bir tərəfdən, sui-istifadə hallarının qarşısını alacaq, digər tərəfdən, OECD-nin əsas məqsədi həm də bütövlükdə, riskli əməliyyatların və vergidən yayınmanın qarşısını almaqdır. Təqdim olunan konvensiya həm riskli əməliyyatların minimumlaşdırılması, həm də vergidən yayınmanın qarşısının alınması baxımından kifayət qədər vacibdir. Ona görə hörmətli həmkarlarımızı sənədə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Azər Kərimli. Buyurun, Azər müəllim. Siz məlumat verəcəksiniz.

**A.Kərimli,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, dəyərli həm-

karlar. Hörmətli Vüqar müəllim müzakirə edəcəyimiz konvensiyaya Azərbaycanın göstərilmiş qeyd-şərtlərlə, bildirişlərlə qoşulmasının ölkəmizdə ədalətli və davamlı beynəlxalq vergi sistemini daha da inkişaf etdirməkdə, vergidən yayınmanın qarşısını almaqda və bütün dünya bazarı iştirakçıları üçün bərabər şəraiti təmin etməkdə mühüm rolu haqqında məruzə etdi. Biz də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq sözügedən konvensiyanın, ümumilikdə, beynəlxalq münasibətlər sisteminə və xüsusi ilə də Azərbaycanın bu münasibətlər sistemində yeri və roluna hansı təsirləri göstərə biləcəyini komitəmizdə müzakirə etdik. Fikrimizcə, təqdim olunmuş çoxtərəfli konvensiya qlobal mənada beynəlxalq münasibətlər sisteminin gücləndirilməsində bir neçə səbəbdən mühüm rol oynayır. Konvensiya ölkələr arasında vergi məlumatlarının şəffaflığını artırır, sui-istifadə hallarının və vergidən yayınmanın qarşısını almağa kömək edir. Bu da dövlətlər arasında etimadı gücləndirir və daha ədalətli, dürüst vergi sisteminin əsasını yaradır. Konvensiyanın əsas məqsədi transmilli şirkətlərin mənfəəti aşağı vergi olan yurisdiksiyalara köçürülməsinə imkan verən aqressiv vergi planlaşdırma təcrübələrini aradan qaldırmaq və bütün ölkələr üçün daha bərabər şəraitin yaradılmasına nail olmaqdır ki, bu da beynəlxalq əməkdaşlığı gücləndirir və iqtisadi disbalansı azaldır.

Vergi bazasının aşınması və mənfəətin köçürülməsi ilə mübarizə dövlətlərin ədalətli vergi gəlirlərini əldə etməsinə kömək edir və bununla səhiyyə, təhsil və infrastruktur kimi sahələrin maliyyələşməsinə töhfə verir. Bu da davamlı inkişaf və sosial sabitliyin gücləndirilməsi üçün mühüm amildir.

Konvensiya beynəlxalq səviyyədə vergi qaydalarının və

standartların harmonizasiyasına kömək edir ki, bu da vergi siyasəti ilə bağlı dövlətlər arasında vergitutma sahəsində qarşılıqlı əlaqəni və koordinasiyanı yaxşılaşdırır və maraqların toqquşmasını azaldır.

Konvensiyanın tətbiqi ölkələrə vergi qanunvericiliyini təkmilləşdirməyə kömək edir ki, bu da hüquqi bazanı gücləndirmək və vergi sistemini daha dayanıqlı və proqnozlaşdıra bilən etməklə bərabər, xarici investisiyaların cəlb edilməsinə və iqtisadi artıma təkan verir.

Konvensiya qlobal vergi siyasətinin formalaşdırılmasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı kimi beynəlxalq təşkilatların əhəmiyyətini təsdiqləyir. Bu da təşkilatların ölkələr arasında dialoq və əməkdaşlıq üçün platforma rolunu daha da gücləndirir.

Sonda, konvensiya vergi gəlirlərinin daha ədalətli bölüşdürülməsini təmin edərək, qlobal səviyyədə iqtisadi sabitliyi dəstəkləyərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı fərqi azaltmağa kömək edir. Bütövlükdə, bütün bu amillər beynəlxalq münasibətlər sisteminin güclənməsinə, daha şəffaf, ədalətli və dayanıqlı qlobal iqtisadiyyatın yaranmasına töhfə verir.

Qeyd etmək lazımdır ki, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həmçinin xarici investisiyaları fəal şəkildə cəlb edərək uğurlu iqtisadi və çoxvektorlu xarici siyasət aparması ölkəmizi regionda və onun hüdudlarından kənarda, ümumiyyətlə, beynəlxalq münasibətlər sistemində siyasi və iqtisadi proseslərə təsir göstərən mühüm regional aktora çevirmişdir.

Yuxarıda sadalanan bütün amilləri nəzərə alsaq, əminliklə deyə bilərik ki, bu konvensiyaya qoşulmaq Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunu daha da gücləndirəcəkdir.

Komitəmiz yekdilliklə ölkəmizin bu konvensiyaya göstərilmiş qeyd-şərtlərlə, bildirişlərlə qoşulmasının vacibliyini vurğulamış və həmkarlarımızdan da qanun layihəsinin lehinə səs vermələrini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Heç kim yazılmayıb müzakirəyə. Mən layihəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Onu da deyim ki, bu məsələlərin ikisi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bildiyiniz kimi, mahiyyətcə də bir-birinə yaxındır.

4-cü məsələ "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 5-ci məsələ isə "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, həmişə etdiyimiz kimi, etirazınız yoxdursa, mən istəyirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatını dinləyək. Onu da qeyd edim ki, hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. İndi isə mən komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun, məlumat verin.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Gündəliyimizin 4-cü və 5-ci məsələləri – "Dövlət qulluğu haqqında" Qanunda və "Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələri iki oxunuşda qəbul edilmişdir.

Layihələrin mətnində hər hansı bir dəyişikliyin edilməməsini nəzərə alaraq, üçüncü oxunuşda qəbul olunmasına səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Heç kimin sözü, sualı yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. Buyurun, xahiş edirəm, 4-cü məsələdəki qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 5-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 6-cı məsələdir. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli sədr, əziz həmkarlar. Əvvəlki oxunuşlarda kifayət qədər məlumat verilib. Xüsusi bir təklif, dəyişikliklə bağlı əlavə təkliflər yoxdur. Bu mənada səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, bizim gündəliyimizdə 3 məsələ var. Bu məsələlərin üçü də uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, layihələr qanunvericiliyin tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

7-ci məsələ “Dərman vasitələri haqqında” və “Reklam haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, xahiş edirəm, məlumat verin.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Təklif olunan qanun layihəsi “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun icrası məqsədi ilə hazırlanmışdır. Belə ki, “Dərman vasitələri haqqında” Qanunun 1.1-ci, 1.2-ci, 1.3-cü və 1.4-cü maddələrində “bioloji fəallığa malik qida əlavələri” sözlərinin “bioloji aktiv qida məhsulları” sözləri ilə və “Reklam haqqında” Qanunun isə 2.1-ci, 2.2-ci və 30.7-ci maddələrində “bioloji fəallığa malik qida əlavələri” sözlərinin “bioloji aktiv qida məhsulları” sözləri ilə əvəz edilməsi təklif olunur. Xahiş edirəm, qanun layihəsini səsə qoyasınız.

**Sədrlik edən.** Əhliman müəllim, çox sağ olun. Bu qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Tahir müəllim, xahiş edirəm, məlumat verin, rəyinizi bildirin.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Xanım sədr, “Reklam haqqında” Qanunda edilən dəyişikliyə bizim komitə rəy vermişdir. Hörmətli Əhliman müəllimin qeyd etdiyi kimi, termin dəyişikliyi ilə yanaşı, 30-cu maddəyə bir əlavə olmuşdur. Bu da ondan ibarətdir ki, qanunun mövcud versiyasına görə bioloji fəallığa malik qida əlavələrinin reklamında onların dərman vasitəsi olmadığı qeyd olunmalıdır. Yeni versiyada isə dərman vasitəsi olmadığı ilə yanaşı, onların müalicəvi xüsusiyyətlərə malik olmadığı, eyni zamanda, qeydiyyat reyestrinin nömrəsinin

olması qanunda vacib şərt kimi göstərilmişdir. Komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Heç kim yazılmayıb. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ 8-ci məsələdir. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılıb. Məlumat üçün mən komitənin sədri hörmətli Bəxtiyar müəllimə söz verirəm. Bəxtiyar Əliyev, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Hörmətli xanım sədrin qeyd etdiyi kimi, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, qanunun 13.4-cü maddəsi ləğv edilir. Belə ki, "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"yə artıq ehtiyac yoxdur. Çünki biz "Ümumi təhsil haqqında" Qanunda ümumi təhsil müəssisələrinin növlərinin təsnifatı ilə bağ-

lı bu yaxınlarda dəyişiklik etmişdik. Bütün bu müəssisələr hamısı "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi" əsasında, özlərinin nizamnaməsi ilə idarə edilir.

Nazirlər Kabineti bu nümunəvi nizamnaməni təsdiq edir və hər bir məktəbin də özünün nizamnaməsi var. Ona görə həmin əsasnaməyə ehtiyac yoxdur və onun ləğv edilməsi də təkmilləşdirmə, uyğunlaşdırma xarakteri daşıyır.

İkinci dəyişiklik isə 20-ci maddədədir. Burada 20.1-ci maddədə "fiziki çatışmazlığı, əqli (və ya) psixi ləngimələri olanlar" sözləri "sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili" sözləri ilə əvəz edilir. Bu da məqbuldur. Çünki həm qanunun 1-ci maddəsində sağlamlıq imkanları məhdud şəxslərin anlayışı verilibdir, həm də bütün qanunda sağlamlıq imkanları məhdud şəxslərlə bağlı məsələlər nəzərdən keçirildiyi üçün bu ifadə fikri daha düzgün, dolğun əhatə edir. Bu da uyğunlaşdırma xarakteri daşıyır. Hesab edirik ki, bu dəyişiklikləri qəbul etmək zəruridir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Yazılan var. Sədaqət Vəliyeva. Sədaqət xanım, buyurun.

**S.Vəliyeva.** Sahibə xanım, söz verdiyinizə görə çox təşəkkür edirəm. Mən qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Sadəcə, bir şeyi qeyd etmək istəyirdim ki, "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 77 nömrəli qərarı var. Burada biz bir maddənin ləğvindən danışırıq. Amma həmin qaydaların 27-ci maddəsinin 10-cu bəndi barədə fikir söyləmək istəyirəm.

Orada yazılır ki, "insulindən asılı şəkərli diabet, koma ilə". Orada "koma ilə" sözünün çıxarılmasını təklif edi-

rəm. Çünki heç bir tibb işçisi bu arayışı verərkən o "koma" sözünü yazmaq istəmir. Çünki, həqiqətən də, komada olan insana təhsil maraqlı olmur. Təhsilə onun ehtiyacı olmur. Komada olmaq həyatla ölüm arasında olan bir prosesdir. Ona görə də o sözün oradan çıxarılmasını təklif edərdim.

Mən bu barədə təhsil nazirinə də, Səhiyyə Nazirliyinə də müraciət etmişəm. Çünki heç bir həkim arayış verərkən o sözü yazmaq istəmir. Çünki koma artıq reanimasiya deməkdir. O, uşağın təhsilinə aidiyyəti olan söz deyil. İnsulindən asılıdır, birinci və ikinci dərəcəli şəkərli diabet xəstəsidir. Artıq ona komissiya baxır və qərar verir ki, uşaq evdə təhsil alsın, yoxsa məktəbə getsin. O sözün çıxarılmasını xahiş edərdim.

Qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Həmkarlarımı da səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sədaqət xanım. Mən düşünürəm ki, əslində, bu məsələ Səhiyyə komitəsinin işidir. Ona sonra baxmaq olar. Əsas bu qanun layihəsinə Siz səs verirsiniz.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu, 9-cu məsələsinə keçirik. Bu məsələ “Elektroenergetika haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Hörmətli həmkarlar, xatırlayırsınızsa, biz keçən il “Elektroenergetika haqqında” Qanun qəbul etdik və həmin qanuna bir neçə yeni termin daxil edilmişdir. Bugünkü qanun layihəsi də həmin terminlərin digər 2 qanunda eyni mənada işlədilməsini nəzərdə tutur. Bunlardan birincisi “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” qanunlarda dəyişiklik edilməsi ilə bağlıdır. Eyni zamanda, bu qanunun qəbulu ilə bağlı “Elektrik və istilik stansiyaları haqqında” Qanun ləğv olunur. Ona görə ki, bunun əvəzində “Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında” və “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” qanunlarda uyğunlaşma xarakterli layihədə nəzərdə tutulmuş müddəalar var. Dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Tahir müəllim, yenə də Sizdən xahiş edirəm, məlumat verin. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, həmkarım hörmətli Sadiq müəllim layihələr haqqında geniş məlumat verdi. Biz də İqtisadi

siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq hesab edirik ki, həm "Dövlət rüsumu haqqında", həm də "Lisenziyalar və icazələr haqqında" qanunlarda rüsumun hesablanması və icazənin verilməsi zamanı konkret güc göstəricilərinin göstərilməsi müsbət addımdır. Bu, bir çox bürokratiyanın qarşısını alacaq.

Layihələrə komitənin rəyi müsbətdir. Həmkarlarımı səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, bu gün yaz sessiyasının son iclasıdır. Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 80 deputat növbədənkənar sessiyanın çağırılması üçün mənə müraciət edib və iyun ayında bizim növbədənkənar sessiyamız olacaq.

İndi isə mən sizə yaz sessiyasının yekunları barədə qısa bir məlumat vermək istəyirəm. İlk öncə onu söyləyim ki, Milli Məclisin yaz sessiyası başlandıqdan az sonra, fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilmişdir. Bildiyiniz kimi, andiçmə mərasimində söylədiyi proqram xarakterli nitqində möhtərəm

cənab Prezident Azərbaycan dövlətinin yeni dövrün tələblərindən irəli gələn vəzifələrini müəyyən etmişdir.

Milli Məclis də dövlət başçısının müəyyən etdiyi hədəflərə uyğun olaraq, yaz sessiyasında fəaliyyətini həmin tələblər səviyyəsində qurmağa çalışmışdır.

Sessiya ərzində parlamentin 13 iclası keçirilmiş, 61 qanun qəbul edilmişdir. Başqa sözlə, 2 yeni qanun qəbul olunmuş, 50 qanunda dəyişiklik edilmiş, 9 beynəlxalq müqavilə təsdiq olunmuşdur.

İnamla söyləmək olar ki, qəbul edilmiş qanunvericilik aktları ölkəmizdə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazasını daha da möhkəmləndirməyə və təkmilləşdirməyə xidmət edir.

Hörmətli həmkarlar, yaz sessiyasında görülmüş işlər haqqında danışarkən mən qeyd etməliyəm ki, həmişə olduğu kimi, hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq Milli Məclisin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsinə kömək göstərmişdir.

Bununla əlaqədar mən parlamentlə hökumət arasında konstruktiv iş birliyini yenə də xüsusi vurğulamaq istəyirəm. Hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmişdir. Bununla birlikdə, deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınmışdır.

Hörmətli həmkarlar, yaz sessiyası dövründə böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə lazım gəldikdə ictimai dinləmələr keçirilməsi praktikasından istifadə edilmişdir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi ilə Aqrar siyasət komitəsinin birgə təşkilatçılığı ilə “Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar” mövzusunda, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən “Nəqliyyatın idarə edilməsində yeniliklər və çağırışlar” mövzusunda, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə təşkilatçılığı ilə “Sağlam ailə modelinin hüquqi aspektləri – Yaşıl dünya müstəvisində” mövzusunda ictimai dinləmələr keçirilmişdir.

Bununla birlikdə, Milli Məclis deputatlarının, Bakı Təşəbbüs Qrupu, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti təmsilçilərinin, Yeni Kaledoniya parlamenti üzvlərinin iştirakı ilə “Yeni Kaledoniya: tarix, müasir çağırışlar və gözlənilən gələcək” mövzusunda və Fransız Polineziyası parlamenti deputatlarının və siyasi xadimlərinin iştirakı ilə “Fransız Polineziyasının dekolonizasiya hüququ: çağırışlar və perspektivlər” mövzusunda konfranslar təşkil olunmuşdur.

Hörmətli deputatlar, bildiyiniz kimi, 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində tarixi qələbələr sayəsində Azərbaycan beynəlxalq hüququn qüvvəsini bərpa etdikdən və ərazi bütövlüyünü, suverenliyini təmin etdikdən sonra ölkəmizə qarşı qərəzli hücumlar güclənmişdir. Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqları qəbul etməyən bu qüvvələr müxtəlif bəhanələr altında ölkəmizin daxili işlərinə müdaxilə etməyə çalışır, bu məqsədlə böhtan və hədələrə də əl atırlar. Beynəlxalq təşkilatların Azərbaycan barəsində qeyri-obyektiv və əsassız qətnamələrinə, eləcə də bəzi ölkələrin parlament üzvlərinin qeyri-adekvat iddialarına Milli Məclisin və onun komitələrinin münasibəti yaz

sessiyasında lazım gəldikcə qətiyyətlə və kəskin şəkildə ifadə edilmişdir.

Hörmətli deputatlar, sessiya ərzində parlamentin səlahiyyət dairəsinə daxil olan bir sıra təyinat məsələləri də həll edilmişdir. Ümumən bu sessiyada Milli Məclisin 21 qərarı qəbul olunmuşdur.

Hörmətli deputatlar, yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər də görülmüşdür. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilmişdir.

Hörmətli həmkarlar, yaz sessiyasında parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlər həyata keçirilmişdir. Milli Məclisin 62 deputatı 26 ölkəyə 102 səfər həyata keçirmişdir. Deputatlarımız 9 beynəlxalq təşkilatın tədbirlərində iştirak və çıxış etmişlər.

Millət vəkillərimiz Rusiyada keçirilən prezident seçkilərini, Belarusda keçirilən parlament seçkilərini və yerli deputat şuralarına seçkiləri, eləcə də İndoneziyada keçirilən prezident və parlament seçkilərini müşahidə etmişlər.

56 ölkənin və 20 beynəlxalq təşkilatın 101 nümayəndə heyəti, ümumən 544 nəfər, bəlkə də çox xarici qonaq Milli Məclisdə olmuşdur. Nəyə görə deyirəm? Çünki dünən də bizim qonaqlarımız olmuşdur.

Hörmətli həmkarlar, Milli Məclis sədrinin 2 ölkəyə rəsmi və 4 ölkəyə işgüzar səfərləri olmuşdur. Milli Məclisdə mən 3 ölkənin prezidenti, 20 ölkənin parlament sədrləri və sədr müavinləri, 7 beynəlxalq təşkilatın rəhbərləri, 2 ölkə-

nin icra hakimiyyəti orqanının nümayəndələri, 5 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirmişəm. Aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilmişdir.

Hörmətli deputatlar, Milli Məclis 7 beynəlxalq tədbirə ev sahibliyi etmişdir. Onların 5-i Bakıda keçirilmişdir, 2-si isə xaricdə. Belə ki, fevralın 21-də və 22-də Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclası və 14-cü plenar sessiyası, – 276 nəfər iştirak etmişdir bu tədbirlərdə, – martın 4-də TürkPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının iclası, aprelin 25-də Türk dövlətləri parlamentlərinin Xarici əlaqələr komitələri sədrlərinin Birinci iclası və mayın 2-də 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun parlamentlərarası konfransı, dediyim kimi, Bakıda keçirilmişdir.

Onu da qeyd edim ki, Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında 2024–2025-ci illər üçün bu təşkilata sədrlik Azərbaycan Respublikasına keçmişdir.

Hörmətli deputatlar, Milli Məclisin xaricdə keçirilən, dediyim kimi, 2 tədbiri olmuşdur. İsveçrənin Cenevrə şəhərində Milli Məclisin təşkilatçılığı və mənim sədrliyim ilə martın 23-də Asiya Parlament Assambleyasının koordinasiya iclası və martın 26-da Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 3-cü konfransı keçirilmişdir. Bu tədbirdə 275 nəfər qonaq qismində iştirak etmişdir.

Hörmətli həmkarlar, qeyd edim ki, yaz sessiyası dövründə Milli Məclis ilə Parlamentlərarası İttifaq arasında Anlaşma Memorandumu, eləcə də Milli Məclis ilə Yeni Kaledoniya Konqresi arasında Əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

Eyni zamanda, hörmətli həmkarlar, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq

arasında Anlaşma Memorandumu da imzalanmışdır.

Beləliklə, hörmətli həmkarlar, Milli Məclis yaz sessiyasını uğurla başa çatdırır. Bununla əlaqədar mən səmərəli iş üçün hamınıza təşəkkür edirəm.

Milli Məclisin yaz sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Əliabbas Salahzadə.** Bu gün müzakirəmizə çıxarılan 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabat və müvafiq qanun layihəsi ilə tanışlıq imkan verir ki, bizdə hökumətin ötənilki fəaliyyətinə dair dolğun təsəvvürlər formalaşsın. Bu baxımdan layihə kifayət qədər peşəkarcasına hazırlanmışdır. Göründüyü kimi, ötən il dövlət büdcəsinin ümumi gəliri 35 milyard manatdan çox olmuşdur. Müvafiq olaraq isə bundan təxminən 1,2 milyard manat artıq vəsait xərclənmişdir. Təbiidir ki, hər bir vətəndaşı və eyni zamanda, biz qanunvericiləri daha çox büdcənin məxaric maddələri üzrə çəkilmiş xərclər maraqlandırır. Bu, həm şəffaflıq, həm də görülən işlər barədə təsəvvürlərin formalaşması baxımından əhəmiyyətlidir.

Ötən il icra olunan büdcənin xərclərinin 7,2 milyard manatdan çox hissəsi müdafiə və milli təhlükəsizlik sahələri üzrə həyata keçirilən layihəyə xərclənmişdir. Bu da təbiidir. Çünki ölkəmizin müdafiə qabiliyyətinin -
ması istiqamətində görülmüş işlər son nəticəd
bütövlüyümüzün və suveren hüquqlarımızın büti
ərazisində bərqərar olunmasına imkan yaratmışdır.

2023-cü ilin sentyabr ayında lokal xarakterli antiterror əməliyyatlarının keçirilməsi ilə ölkəmiz müharibə şəraitindən çıxmışdır. Amma bununla belə, qeyd etmək istərdim ki, bir sıra təhdidlər hələ də qalmaqdadır. Ona görə də ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində fəaliyyət davam etdirilməli və genişləndirilməlidir. Burada xüsusi diqqət artırılmalı məqam müdafiə sənayesinin inkişaf etdirilməsi ilə bağlıdır. Keçən il bu maddə üzrə müəyyən qədər vəsait ayrılsa da, hesab edirəm ki, növbəti

büdcə ilində müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar maddəsi üzrə vəsaitin əsaslı şəkildə artırılmasına ehtiyac vardır. Ötən il bu vəsait 4 milyon yeddi yüz yetmiş beş min üç yüz iyirmi səkkiz manat təşkil etmişdir. Təklif edirəm ki, bu vəsaiti təxminən 10 milyon manata çatdırmaq məqsədəuyğun olardı. Bu, eyni zamanda, paralel olaraq, büdcənin ikinci ən böyük xərc maddəsi olan təhsil sahəsinə də dolayısı ilə öz təsirini göstərəcəkdir. Çünki son 2 il ərzində ölkəmizin ali məktəblərində müdafiə sənayesinə ixtisaslı kadrların hazırlanması sahəsində bir sıra işlər görülmüş, bu istiqamətdə yeni ixtisaslar açılmışdır. Təqdirəlayiq haldır ki, Nazirlər Kabinetinin ötən günlərdə qəbul etdiyi yeni qərarla ölkəmizdə fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrində də ölkənin müdafiə sahəsinə xidmət edəcək kadrların hazırlanmasına imkan verən yeni ixtisasların açılması nəzərdə tutulur.

Toxunmaq istədiyim digər bir məsələ büdcəmizdə ötən il yerli özünüidarəetmə orqanlarına ayrılan dotasiyalar ilə bağlıdır. Bu rəqəm təxminən 5,4 milyon manat həcmində olmuşdur. Lakin bu sessiya ərzində biz bələdiyyələrlə bağlı bir sıra islahatlar həyata keçirdik, onların sayını təxminən 3 dəfəyə qədər azaltdıq. Hesab edirəm ki, optimallaşdırdıq.

Təklif edirəm ki, gələn büdcə ili üzrə büdcə layihəsi hazırlanan zaman əsas diqqət təkcə bələdiyyələrə ayrılan dotasiyaların artırılmasına deyil, konkret olaraq dotasiyanın sərf ediləcəyi layihənin bələdiyyələrin davamlı fəaliyyətinə və bu fəaliyyətin bu və ya digər icmalar üzrə təsirlərinin hiss oluna biləcək səviyyədə olmasına hədəflənsin.

Keçən büdcə ilində dövlət büdcəsi vəsaitinin böyük bir hissəsi işğaldan azad edilmiş ərazilərə qayıdışın sürətli

təmin olunmasına xərclənmişdir. Məhz görülən işlərin nəticəsidir ki, artıq təxminən 10 min nəfərə yaxın soydaşımız öz doğma yurdlarına geri dönmüşdür. Ümumiyyətlə, bu proqram üzrə xərcləri və həmin xərclərin müqabilində görülən işləri analiz edən zaman təkcə bu gün qayıdışı təmin olunmuş şəxslərin sayının nəticə olaraq əsas götürülməsinin tərəfdarı deyiləm. Çünki çəkilmiş xərclər və bunun müqabilində görülmüş işlər məhəlli, rayon və bölgəsəl infrastrukturun, bütövlükdə, formalaşmasına imkan verir ki, bu da gələcəkdə daha çox soydaşımızın qayıdışına imkan verəcəkdir. Məhz bunun nəticəsidir ki, artıq 2025-ci ildə təxminən 100 min soydaşımızın öz yurdlarına dönə biləcəyi proqnozlaşdırılır.

Bu məqamda onu da qeyd etmək istərdim ki, işğaldan azad olunmuş ərazilərdə qurulan infrastruktur, ərazi imkanları və işğaldan əvvəlki əhali statistikasına nəzərən hesablaya biləcəyimiz demoqrafik vəziyyət və bununla bağlı proqnozlaşdırılan əhali sıxlığı bizə imkan verir, növbəti müddətdə təkcə işğaldan azad edilmiş ərazilərdən olan soydaşlarımızın deyil, ölkəmizin müxtəlif rayonlarında yaşayan, mənzil şəraiti, demək olar, olmayan insanlarımızı da mənzillə təmin edək. Düşünürəm ki, bu istiqamətdə artıq əməli işlərin görülməsi zamanı yetişmişdir və demoqrafik prosesləri tədqiq edən əlaqədar orqanlar bu sahədə tədqiqat materialları və layihələr hazırlamalıdırlar. Bu, həm də imkan verəcəkdir ki, təxminən 12 min kvadrat kilometr ərazini əhatə edəcək geniş bir bölgədə məşğulluğun təşkili məsələlərini uğurla icra edə bilək.

Təbiidir ki, büdcə məsələləri barədə çox danışmaq olar. Çünki bu məqamlar yaşayışımızın hər anında təzahür edir və hər birimizi düşündürür. Qeyd edilənləri nəzərə alaraq,

qanun layihəsinin qəbul edilməsinin tərəfdarıyam və hökumətin ötən büdcə ilindəki fəaliyyətini məqbul hesab edirəm.

**Malik Həsənov.** Bu gün müzakirəmizə çıxarılan 2023-cü il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi və ona əlavə edilmiş hesabat hökumətin ötən büdcə ilindəki fəaliyyətinin aydın mənzərəsini özündə əks etdirir. Eyni zamanda, cari ilin mart ayında hörmətli Əli müəllim hökumətin fəaliyyəti ilə bağlı geniş məruzə ilə parlament qarşısında çıxış etdi və həmin hesabat tərəfimizdən qəbul edilmişdir. Bu da bu gün bizə öncədən söyləməyə əsas verir ki, 2023-cü ilin büdcəsi tələb olunan səviyyədə icra edilmişdir.

Hesabat sənədindən də görünür ki, qurulmuş fəaliyyət "Büdcə sistemi haqqında" Qanuna uyğun şəkildə həyata keçirilmişdir. Eyni zamanda, onu da qeyd etmək yerinə düşər ki, ölkədə iqtisadi mühitin yaxşılaşdırılması, iqtisadi islahatların səmərəliliyinin artırılması və iqtisadi qanunvericiliyin beynəlxalq qanunvericiliyə inteqrasiyası, ən əsası isə çağdaş dövrün beynəlxalq və regional çağırışlarına cavab verən şəkildə uyğunlaşdırılması istiqamətində biz qanunvericilər tərəfindən həm ötən il, həm də cari ildə kifayət qədər işlər görülmüşdür. Görülmüş işlər imkan verir ki, iqtisadi fəaliyyətin qanunvericilik təməli dayanıqlı olsun.

Ötən il dövlət büdcəsinin ümumi gəliri 35 milyard manatdan çox olmuşdur. Müvafiq olaraq isə bundan təxminən 1,2 milyard manat artıq vəsait xərclənmişdir. Göründüyü kimi, büdcə kəsiri müvafiq olaraq 1,2 milyard manatdan bir qədər çox olmuşdur. Təqdim olunmuş statistik rəqəmlərdən çıxış etsək, ötən ilki büdcənin gəlirləri proqnoza qarşı 4 faiz, xərcləri isə proqnoza qarşı

0,5 faiz təşkil etmişdir. Büdcə kəsiri isə təsdiq olunmuş proqnozla müqayisədə 55,5 faiz olmuşdur. Bu göstəricilər kifayətdir ki, ölkəmizdə ötən il kifayət qədər səmərəli iqtisadi fəaliyyətin qurulduğunu söyləyək.

Təbiidir ki, hər bir vətəndaşı və eyni zamanda, biz qanunvericiləri daha çox büdcənin məxaric maddələri üzrə çəkilmiş xərclər maraqlandırır. Bu, həm şəffaflıq, həm də görülən işlər barədə təsəvvürlərin formalaşması baxımından əhəmiyyətlidir.

Ölkə büdcəsinin böyük hissəsini, demək olar ki, bütün müstəqillik dövründə neft gəlirləri təşkil edir. Lakin son illərdə neft gəlirlərinin büdcədə xüsusi çəkisinin azaldılması və qeyri-neft sektoru üzrə daxilolmaların həcminin artırılması istiqamətində geniş işlər görülür, müxtəlif dövlət proqramları həyata keçirilir.

2023-cü ildə qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 18,1 milyard manat təşkil etmişdir. Bu da 2022-ci illə müqayisədə faiz göstəricisi ilə 18,4 faiz çox deməkdir.

Neft sektoru üzrə büdcə gəlirlərinin 64,6 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə edilmiş transfert hesabına formalaşmışdır. Bununla yanaşı, vergi tutulmaları, dövlət rüsumları və digər maddələr üzrə daxilolmaların artması, sistemli işin təşkili və şəffaflığın təmini istiqamətində görülmüş əsaslı işlərin nəticəsi hesab oluna bilər.

Ötən il icra olunan büdcənin xərclərinin 5,8 milyard manatdan çox hissəsi müdafiə və milli təhlükəsizlik sahələri üzrə həyata keçirilən layihələrə xərclənmişdir.

Dövlət büdcəsinin məxaric hissəsində ikinci yeri təhsil sahəsinə ayrılmış xərclər tutur. Bu maddə üzrə ötən büdcə ilində təxminən, yuvarlaq qiymətlərlə 4,2 milyard manatdan bir qədər az vəsait xərclənmişdir. Səhiyyə sahəsində isə 1,7 milyard manatdan bir qədər artıq vəsait xərclənmişdir.

Büdcənin müdafiə, təhsil və səhiyyə sahələri üzrə çəkilən xərcləri istiqamətlərinə baxsaq, onda müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlara 4,7 milyon, təhsil sahəsində tətbiqi tədqiqatlara 5,9 milyon, səhiyyə sahəsində tətbiqi tədqiqatlara isə 2,2 milyon vəsaitin xərcləndiyi görünür. Dünyanın qabaqcıl ölkələrində bütün gəlir gətirən sahələrdən əldə edilən vəsaitin böyük bir hissəsi insan kapitalına yönəldilir, ağıllı texnologiyaya əsaslanan ağıllı sənaye, ağıllı kənd təsərrüfatı və son nəticədə ağıllı cəmiyyət modelinə nail olunması başlıca hədəf götürülür. Texnoloji yarışmanın sürətləndiyi qloballaşan dünyada bu sürətə uyğunlaşmaq üçün tətbiqi layihələrin artırılması günümüzün zərurətidir.

Hesab edirəm ki, ölkəmizdə tətbiqi layihələrə, ümumilikdə, elm sahəsinə vəsait qoyuluşu əsaslı şəkildə artırılmalıdır. Necə ki, bir zamanlar qürurla qeyd edirdik ki, ölkəmizin müdafiə xərcləri düşmən ölkənin ümumdövlət büdcəsi həcmindədir və bunun da məntiqi sonluğu Vətən müharibəsindəki qələbəmiz oldu. İndi də biz elmə və xüsusən tətbiqi sahələrə vəsait qoyuluşunu artırmaqla gəlir gətirə bilən yeni sahələrə çıxış əldə edə bilərik.

Bu gün müzakirəmizə çıxarılan qanun layihəsi məqbul variantda tərtib edildiyindən onun lehinə səs verəcəyəm. Sizlərin hər birinizə fəaliyyətinizdə uğurlar arzu edirəm.

**Naqif Həmzəyev.** 2023-cü ildə dünya çox böyük geosiyasi təlatümlərlə qarşı-qarşıya qaldı ki, bu gərginliklər ilk növbədə qlobal və milli iqtisadiyyatlara öz təsirini göstərdi. Hətta Beynəlxalq Valyuta Fondunun hesabatlarından bəlli olur ki, 2023-cü ildə qlobal iqtisadi artım 2022-ci il ilə müqayisədə 0,3 faiz bənd aşağı olmuşdur.

Bu kimi qeyri-stabil qlobal mühitdə Azərbaycan barmaqla sayıla biləcək ölkələrdən oldu ki, makroiqtisadi

sabitlik təmin edildi və bütün dünyanı cənginə alan inflyasiya ölkəmizdə minimum göstəricilərlə müşahidə olundu.

2023-cü ildə ölkəmizdə iqtisadiyyatın inkişafı özünü bir neçə mühüm nəticə ilə göstərdi. İlk növbədə qeyri-neft sektorunun inkişafı və müsbət nəticələri, “Azeri Light” markalı xam neftin qiymətinin hətta proqnoz qiymətindən belə yuxarı olması bu kimi amillərdəndir. Ölkəmizdə hazırda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması üçün dövlət və özəl sektor xətti ilə böyük addımlar atılır, layihələr dəstəklənir, ticarət tərəfdaşları ilə münasibətlər genişləndirilir. Bu faktorlar, əlavə olaraq dövlətin antiinflyasiya tədbirləri imkan verir ki, ölkə iqtisadiyyatında inkişaf tempi özünü doğrultsun.

2023-cü ildə dövlət büdcəsinin yönəldiyi prioritet istiqamətlərdən biri işğaldan azad edilmiş torpaqlarda yenidənqurma prosesi, Böyük Qayıdışın sürətləndirilməsi, mülki həyatın yenidən qaytarılması istiqamətindəki addımlar və layihələrdir. Dövlətimiz hər vəchlə çalışır, 30 ilin ardından bu torpaqlar yenidən özünə qayıtsın və vətəndaşlarımız bilməlidir ki, biz bütün bu prosesi öz dövlət büdcəmiz hesabına maliyyələşdiririk və icra edirik.

Digər mühüm istiqamət sosial sahəyə yönəlmiş tədbirlərdir. Belə ki, yoxsulluq səviyyəsinin azaldılması, əhalinin rifah və gəlir imkanlarının yaxşılaşdırılması, aztəminatlı ailələrin, sosial baxımdan həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə 2023-cü il ərzində pensiyalar, əmək haqları, sosial müavinətlər və sair artırılmış, sosial sahə daim diqqət mərkəzində saxlanılmışdır. Statistikaya baxsaq, 2023-cü ildə minimum əmək haqqının məbləği 15 faiz artırılaraq 345 manata çatdırılmışdır, həmçinin 2023-cü il yanvarın 2-dən etiba-

rən sosial müavinətlər və Azərbaycan Respublikası Prezidentinin təqaüdləri 33 faiz artırılmışdır.

Qeyd etmək lazımdır ki, 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəfləndiyindən, bu istiqamətdə dövlətlə birlikdə özəl sektorun investisiyaları və birgə layihələri böyük rola malikdir. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə "Xızı–Abşeron" Külək Elektrik Stansiyasının, eləcə də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş Elektrik Stansiyasının tikintisi üzrə layihələr bu kimi addımlardandır.

Enerji istiqamətində sonuncu layihələrdən Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi enerji, kənd təsərrüfatı, suvarma problemi kimi bölgəni yaxından maraqlandıran bir sıra problemləri əhatə edəcək və bu kimi layihələr xüsusi ilə də enerji və su çatışmazlığı probleminin həlli yolu olacaqdır.

Mən Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini dəstəkləyirəm.

**Sahib Alıyev.** Hər bir büdcənin qarşısında bir neçə mühüm vəzifə var ki, onların da başında makroiqtisadi sabitliyin və iqtisadi artımın təmini, eləcə də dövlətin üzərinə götürdüyü sosial öhdəliyin tam yerinə yetirilməsi gəlir. Bu baxımdan yanaşdıqda 2023-cü ilin dövlət büdcəsinin, bütövlükdə, uğurla icra edildiyini görməmək mümkün deyil. Ancaq bütün bunlarla birgə, bizim üçün son dərəcə mühüm vəzifə İkinci Qarabağ savaşında əldə edilən Zəfərin möhkəmləndirilməsi, revanşizmə can atanların qarşılarının qətiyyətlə kəsilməsi və işğaldan azad olunan torpaqlarımızda quruculuq prosesinin sürətli davamı, soydaş-

larımızın yurd yerlərinə qaytarılmalarının nə qədər mümkündür bir o qədər tez baş tutmasıdır ki, buna ötən il üst-üstə 12 milyard manatdan çox vəsait ayrılmışdır.

Böyük məmnuniyyətlə deyə bilərəm ki, 2023-cü il büdcəsinin təxminən üçdə birinin bu sahəyə yönəldilməsi özünü tam doğrultdu. Bu, təkcə Laçına, Füzuliyə, işğaldan azad edilən digər yaşayış məskənlərimizə yurd həsrətlilərimizin dönüşündə özünü göstərmədi. Baxın, son 30 ildə dünyada ötən ildəki qədər çox regional qarşıdurma qeydə alınmayıb. Dəhşətdir, 183 qanlı toqquşmadan söhbət gedir. Bu toqquşmaların içərisində mülki şəxslərə mümkün qədər az zərər yetirmək, peşəkarlıq və gələcəkdə regionda sülhün təmininə xidmət baxımından örnək sayılan, nadir təsir bağışlayan məhz ötən il sentyabrın 19-20-də Azərbaycanın keçirdiyi lokal antiterror tədbiridir ki, burada da yeridilən büdcə siyasətinin rolu heç də az deyil. Yəni biz görürük ki, ordu quruculuğu və təhlükəsizlik sahəsinə təqribən 7,3 milyard manat elə-belə sərf edilməyib. Mən əminəm ki, əgər ordu quruculuğuna və təhlükəsizlik məsələlərinə bu qədər diqqət yetirilməsə, işğaldan azad edilmiş ərazilərdəki quruculuq işlərinə 4,8 milyard manat ayırmaqla soydaşlarımızın ora köçlərini belə uğurla reallaşdırmasaydıq, nə “miatsum”çular ötən ilki addımı atacaq, nə də Rusiya hərbi kontingenti Qarabağı tərk edəcəkdi.

Yeri gəlmişkən, işğaldan qurtarılan ərazilər üçün ayrılan 4,8 milyard manat vəsait tam icra edilib ki, cənab Prezidentin təbirincə desək, hazırda bizim əsas rəqibimiz olan zamana uduzmamaq baxımından bu, çox önəmlidir.

Ümumiyyətlə, 2023-cü ildə 36 milyard 458,5 milyon manat dövlət büdcəsi xərcləri 99,5 faiz icra olunub ki, son on ildə biz ikinci dəfədir belə reallıqla üzləşirik və bu,

müsbət haldır. Xatırladım ki, 2022-ci ildə də büdcə xərclərinin icrası 99,3 faiz yerinə yetirilmişdi.

Mən az öncə İkinci Qarabağ savaşında əldə edilən qələbənin möhkəmləndirilməsinə, Azərbaycanın yaratdığı reallıqla barışmaq istəməyənlərin fakt qarşısında qoyulmasına toxundum ki, burada ilk baxışda qəribə təsir bağışlasa da, 2023-cü il büdcəsindəki iki xərc də az rol oynamayıb.

Onlardan biri beynəlxalq tədbirlərin keçirilməsidir ki, 25-dən artıq müxtəlif təyinatlı belə tədbirlərə ötən il 200 milyon manatdan çox vəsait sərf olunub. Düz də edilib. Çünki hamısı birmənalı şəkildə Azərbaycanın yumşaq güc potensialının artmasına aparıb çıxarıb. Eyni zamanda, 112,7 milyon manatlıq xarici yardımlar haqqında da bunu demək olar. Təbii və humanitar fəlakətlə bağlı 103,6 milyon manat yardım alanların ön sırasında qardaş Türkiyə, Pakistan və Ukrayna gəlir ki, bu da səbəbsiz deyil. Yəqin, İkinci Qarabağ savaşı günlərində müzəffər Ali Baş Komandanımızın bizə dəstək verən dövlətləri heç vaxt unutmayacağımız haqda dediklərini hamımız xatırlayır və görürük ki, verilən söz əməldə yenə də öz təsdiqini tapır. Hazırda Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq prosesinə də ən çox qardaş Türkiyənin şirkətləri cəlb olunublar.

Burada onu deyim ki, xarici yardımların sırasında Rohinca müsəlmanlarına qarşı ədalətsizliklə bağlı məhkəmə prosesinin davam etdirilməsi xərclərinin ödənilməsi də var, onu dövlətimizin islamofobiyaya qarşı mübarizənin ön cərgəsində olduğunun daha bir göstəricisi saymaq olar.

Azərbaycan donor dövlət kimi təxminən 80-dən artıq ölkəyə yardım edib ki, bu da Fransa sayaq özündənrazı güclərin bizə qarşı beynəlxalq müstəvidəki fəaliyyəti-

nin qarşısının alınmasında az rol oynamayıb.

Toxunmaq istədiyim daha bir neçə məqam vardı ki, vaxtın azlığını nəzərə alaraq, onların üzərindən keçirəm. Hesab edirəm ki, 2023-cü il büdcəsinin icrası, bütövlükdə, Hesablama Palatasının hesabatında vurğulandığı kimi, "Büdcə sistemi haqqında" Qanunun 18-ci və 20-ci maddələrində təsbitlənmiş müddət və formalara tam da olmasa uyğundur. Burada Hesablama Palatasının adını elə-belə qeyd etmədim. Onun hesabatında büdcənin icrası ilə bağlı çatdırılma forması yumşaq olsa da, eyni üsluba əməl etməklə bildirək ki, xeyli ciddi uyğunsuzluqlar və sual doğuran məsələlər var, bu da, məncə, büdcənin gərəkən səviyyədə proqramlar üzrə tərtib olunmamasından irəli gəlir.

Sonda onu deyim ki, hörmətli Tahir Mirkişili kimi mən də Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatının 2023-cü il üzrə "Açıq Büdcə İndeksi" hesabatında Azərbaycanın mümkün 100 baldan 67 bal toplayaraq 21 pillə irəliləyib 125 ölkə arasında 23-cü yeri tutmasını böyük uğur sayıram. Xatırladım ki, bu reytinq tərtib edilərkən Dünya Bankının "Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı", Beynəlxalq Valyuta Fondunun "Fiskal Şəffaflığın Ən Yaxşı Təcrübələr Məcəlləsi", "Lima Bəyannaməsi", "Fiskal Şəffaflıq üzrə Qlobal Təşəbbüs"ün prinsipləri və sair kimi mühüm sənədlərə istinad olunur. Burada büdcə məlumatlarının cəmiyyət üçün əlçatanlığı və şəffaflığı ilə yanaşı, effektli nəzarət prosedurları da az rol oynamır ki, onu da həyata keçirən qurumlardan biri məhz Hesablama Palatasıdır. Bu uğura görə Hesablama Palatasını da təbrik edir, 2023-cü il büdcəsinin icrasını qənaətbəxş sayıram.

**Soltan Məmmədov.** Ötən ilin dövlət büdcəsinin icra edildiyi makroiqtisadi mühitin qənaətbəxş olması, iqtisadi

artımın məhz qeyri-neft sektoru hesabına təmin edilməsi, ümumilikdə, Azərbaycanda da davamlı iqtisadi inkişaf tempinin mövcud olduğunu təsdiqləyir. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, sosial müdafiə, təhsil, səhiyyə, milli təhlükəsizlik və digər prioritet sahələrdə maliyyə təminatının uğurlu təşkili bütün istiqamətlərdə əldə olunmuş uğurları şərtləndirən başlıca amillərdən biridir.

Xüsusi ilə sosial müdafiə məsələlərinin hər zaman olduğu kimi, diqqətdə saxlanılmasını vurğulamaq istərdim. 2024-cü ilin birinci rübündə sosial ödənişlərin ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çox olması Azərbaycan dövlətinin əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasətini davam etdirdiyini təsdiq edir.

Eyni zamanda, səhiyyə sahəsində də islahatlar uğurlu nəticələrini verir. Ötən il istifadə edilmiş səhiyyə xərclərinin 73 faizindən çoxu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə aiddir ki, bu da çox müsbət tendensiyanın göstəricisidir. Qeyd olunan göstərici 2022-ci illə müqayisədə 12,6 faiz artım deməkdir.

Dövlət proqramları çərçivəsində göstərilən bəzi səhiyyə xidmətlərinin tədricən icbari tibbi sığorta zərfinə daxil edilməsi bu sahədə həm şəffaflığın təmin olunmasına, həm də vətəndaş məmnunluğunun artmasına çox böyük stimul verir. Daha əvvəlki büdcə müzakirələrində də qeyd etmişdik ki, səhiyyə sahəsində dövlət proqramlarında nəzərdə tutulmuş tibbi xidmətlərin məhz xidmətlər zərfinə daxil edilməsi məqsədəuyğundur. Bu gün artıq koxlear implantasiya, anadangəlmə ürək qüsurlu uşaqların əməliyyatı tam olaraq, qaraciyər, böyrək, sümük iliyi və hematopoetik kök hüceyrələrin transplantasiyası kimi xidmətlərin isə mərhələli olaraq icbari tibbi sığorta üzrə

xidmətlər zərfinə daxil edilməsi yüzlərcə insanın həyatını xilas etməyə, sağlamlığına qovuşmasına imkan yaradıb. Təqdim olunan hesabatlar, rəylər və büdcənin icrası ilə bağlı göstəricilərin təhlili bu istiqamətdə düşünülmüş strategiyanın həyata keçirildiyini deməyə əsas verir.

Ümumilikdə, son 5 ildə dövlət büdcəsi xərclərinin tərkibində səhiyyə xərclərinin xüsusi çəkisində təxminən 2 dəfə artım qeydə alınıb. İnsanların sağlamlığının qorunmasına dövlətin, hökumətin diqqətinin ifadəsi olan bu artım nəticə etibarı ilə səhiyyə xidmətlərinin əlçatanlığını təmin etməyə imkan verir. Çünki əhalinin sağlamlığı daha geniş prizmadan baxdıqda həm də milli təhlükəsizlik məsələsidir.

Düşünürəm ki, ümumi səhiyyə xərclərində ilkin səhiyyə xidmətləri və səhiyyə sahəsində tətbiqi tədqiqatlarla bağlı xərclərə gələcəkdə daha çox yer verə bilərik. İlkin səhiyyə xidmətlərinin düzgün təşkili, tətbiqi tədqiqatların genişləndirilməsi əhalinin sağlamlığının daha yaxşı qorunmasına imkan yaradan bir çox ölkələrdə uğurla sınaqdan çıxarılmış effektiv mexanizmdir. ÜST-ün tövsiyələrinə uyğun olaraq, bu gün bütün ölkələr ilkin səhiyyə xidmətinin gücləndirilməsi, bu sahəyə ayrılan büdcənin ümumi səhiyyə büdcəsindəki payının artması istiqamətində islahatlar həyata keçirir. Səhiyyə Nazirliyi və TƏBİB ÜST ilə birlikdə ilkin səhiyyə xidmətinin gücləndirilməsi istiqamətində bir sıra pilot layihələr həyata keçirirlər. Lakin 2023-cü il büdcəsinin icrası haqqında hesabatda məhz ilkin səhiyyə xidmətinin ümumi səhiyyə büdcəsindəki payı bu istiqamətdə daha radikal addımların atılmasını zəruri edir. Uşaqlar arasında peyvənd proqramı, uşaqların dispanserizasiyası dövlət proqramı, əhalinin maarifləndirilməsi və sağlam həyat tərzinin təbliği və bir

sıra digər preventiv tədbirlərin həyata keçirilməsi həm insanların sağlamlığının qorunmasına, həm səhiyyə xərclərinin optimallaşdırılmasına, həm də əlillik, işsizlik və digər sosial xərclərin minimallaşdırılmasına xidmət edəcəkdir.

İlkin səhiyyə xidməti nə qədər yaxşı təşkil olunursa, xəstəliklərin ağırlaşmasının, yayılmasının qarşısı bir o qədər uğurla alınır. Hesab edirəm ki, dövlətin ümumi səhiyyə sahəsində həyata keçirdiyi davamlı islahatlar və mövcud vəziyyətin təhlili gələcəkdə bu məsələlərə daha çox diqqət ayırmağa imkan yarada bilər.

Ümumilikdə, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini dəstəklədiyimi bildirirəm. Hesab edirəm ki, təqdim olunan layihə Azərbaycan dövlətinin qarşısında qoyduğu strateji məqsədlərə nail olduğunu bir daha təsdiq edir.

**Tamam Cəfərova.** Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi və Azərbaycan Respublikası 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatı, eyni zamanda, hər iki sənədə dair Hesablama Palatasının rəyi ilə tanış olduqda, bütövlükdə, 2023-cü ili ölkənin sosial-iqtisadi inkişafı baxımından uğurlu il hesab etmək olar. Xüsusi ilə qeyd etməliyik ki, 2023-cü il ölkəmiz üçün hər baxımdan unudulmaz tarixi hadisələrlə yadda qalan il olmuşdur. Ötən ilin sentyabrın 19-da baş tutan uğurlu antiterror əməliyyatları nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş, Xankəndidə, Xocalıda və digər ərazilərimizdə müqəddəs üçrəngli bayrağımız ucaldılmış, tarixi torpaqlarımızda separatizmin və terrorçuluğun kökü kəsilmişdir. Həmçinin 2023-cü il Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin

və cənab Prezidentin hakimiyyətinin 20 illiyinin qeyd olunması kimi mötəbər hadisələrlə Azərbaycan xalqının yaddaşında qalmışdır.

Ölkəmizdə bu qədər böyük, regional və beynəlxalq siyasətə təsir edən mühüm hadisələr baş verməklə bərabər, 2023-cü il dünyada geosiyasi və geoiqtisadi gərginliklərin artması fonunda qlobal iqtisadiyyatın zəif bərpası ilə xarakterizə olunur. Nəzərə alsaq ki, dünyada çətin və mürəkkəb proseslər, siyasi, iqtisadi kataklizmlər, açıq müharibələr və münaqişələr şiddətlənərək davam edir, cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda isə siyasi-iqtisadi sabitlik bərqərar olmuşdur. Əminliklə deyə bilərik ki, qlobal geosiyasi çağırışlara rəğmən, 2023-cü ildə Azərbaycanda makroiqtisadi sabitlik təmin edilmiş, hökumət və Mərkəzi Bankın vaxtında və düzgün atdığı addımlar sayəsində inflyasiyanın birrəqəmli səviyyəyə endirilməsi şərtləndirilmişdir.

Yeni reallıqlar fonunda 2023-cü il ərzində iqtisadiyyatın şaxələndirilməsi, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmişdir. Belə ki, hesabatda 2023-cü ildə ölkədə formalaşmış makroiqtisadi mühit, dövlət büdcəsində nəzərdə tutulmuş gəlir və xərclərin, habelə dövlət proqramlarının, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və bərpası üçün ayrılmış vəsaitlərin icrası haqqında və ya digər mühüm məlumatlar öz əksini tapmışdır. Büdcənin icrası ilə bağlı hesabatdan göründüyü kimi, aztəminatlı və həssas təbəqədən olan insanların sosial müdafiəsinin gücləndirilməsi üçün nəzərdə tutulan layihələr də uğurla davam edir. Xüsusi ilə insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiya-

ların iqtisadi artım tempinə uyğun olaraq, mütəmadi artırılması, yeni sosial infrastrukturun yaradılması bir daha sübut edir ki, sosial siyasət dövlətin siyasətinin prioritet istiqamətlərindən biridir və bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı durur.

Bütövlükdə, 2023-cü ilin büdcə hesabatındakı statistik rəqəmlər onu deməyə əsas verir ki, qarşıya qoyulan hədəfə nail olunub. Fürsətdən istifadə edib, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini və Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatı hazırlayan müvafiq dövlət qurumlarına təşəkkür edirəm. Mən də qanun layihəsini, hesabatı və Hesablama Palatasının rəyini əhatəli hazırlanmış sənəd hesab edirəm və ona səs verəcəyəm.

# MÜNDƏRİCAT

31 may 2024-cü il................................................................. 3
Edilməmiş çıxışların mətnləri............................................... 81

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

72-ci cild

31 may 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  5,5. Sifariş 69. Tiraj 150.